24_27 IYUl-QARA.qxd 7/18/2024 11:42 PM Page 1

UNİKAL

№25 (2207) 19 iyul 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru

# Ermənistan Londonda dialoqdan yayındı: İngiltərənin vasitəçiliyi narahatlıq yaradıb





Səh.9

## Oqtay Əsədovun mandatsız qalmasının gizlinləri

*"Unikal" qəzeti keçmiş məmurların və eks-deputatların hazırda harada və nə işlə məşğul olduqları barədə silsilə yazıların dərcini davam etdirir. "Sabiqlərin izi ilə" adlandırdığımız həmin silsilədən bugünkü məqaləmiz Milli Məclisin sabiq sədri Oqtay Əsədov haqqındadır. 69 yaşlı Əsədov qəfil karyera yüksəlişi yaşayanlardandır: o, 1981-ci ildən Azərbaycan Baş Quraşdırma və Xüsusi Tikinti İşləri Nazirliyinin "Azərsantexquraşdırma" Trestində elə də yüksək vəzifələr tutmadığı halda 1996-cı ildsə gözlənilməz şəkildə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, cəmi 8 il sonra isə "Azərsu" Səhmdar Cəmiyyətinin prezidenti vəzifələrinə irəli çəkilmişdi.*

Səh.8

## XİN rəhbərindən Ermənistanın "sülhdənqaçma fəndi"nə reaksiya



*Avropa Siyasi Birliyinin Birləşmiş Krallığın Vudstok şəhərində keçirilən sammiti çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Birləşmiş Krallığın xarici işlər, birlik və inkişaf məsələləri üzrə dövlət katibi Devid Lemmi arasında görüş keçirilib.*

Səh.2

## Siyasi partiyalar parlament seçkilərinə hansı dairədən kimlərlə gedir...



*Sentyabr ayının 1-də Azərbaycanda növbədənkənar parlament seçkiləri keçiriləcək. Qeydiyyatda olan 26 siyasi partiyanın əksəriyyəti seçkilərdə ştirak etmək barədə qərar qəbul edib. Bəzi partiya liderləri seçkidə iştirak etməsələr də, təşkilatın digər üzvləri namizəd kimi irəli sürülüb.*

Səh.4

## Milli mətbuatımız özünün inkişaf dövrünü yaşayır



*Azərbaycan mətbuatı özünün yüksəliş mərhələsini yaşamaqdadır. Bu günlərdə Azərbaycan mətbuatı 149 yaşını qeyd edəcək. Azərbaycanda çap media ilə yanaşı internet media da populyarlıq qazanıb. Ölkə və dünya ictimaiyyətində baş vermiş hadisələrdən artıq internetdə bir kliklə xəbər tutmaq mümkündür.*

Səh.11

# "Bu, qızların tərbiyəsini pozur" - Elza Seyidcahan



***"Dinləyicini yüksəyə qaldırın. Deməyin ki, dinləyici bunu istədi mən də ifa etdim. Dinləyici bizim evimizdə olan körpə uşaqdır. onları qoruyaq. Musiqi beşikdən məzara qədər məlhəmdir. "Məndən bunu istədilər, mən də verdim" deyənlərlə mübarizə aparaq. Düzdür, biz pula satılırıq. Sənəti baha alıb, ucuz satanlar var. Musiqini ucuz satanlar xalqımın düşmənidir".***

Bu sözləri Əməkdar artist Elza Seyidcahan "İncə səhər" verilişində deyib. Müğənni bayağı mahnılar oxuyanlardan danışıb.

Seyidcahan uşaqlarla bağlı yayılan videolardan da danışıb: "Bizim gözəl rəqslərimiz var idi. Nə günə qalmışıq ki, bəzi ara müğənniləri deyir ki, indi mənim üçün əlçatmaz müğənni yoxdur, bir Zeynəb Xanlarovadır. Hamısını toyda görmüşük. Deməli, müğənnini toyda gördüyü üçün ona əlçatan deyir. Mən bir müğənnini görəndə oturub düşünürəm ki, o, hansı sənət yolunu keçib. Birini haradasa görəndə adı Elmiradırsa "Emiş" deyirlər. Pul bunları çaşdırıb. Mənim övladlarımın toyunda mən o cür müğənniləri və mahnıları qoymamışam səslənsin. Balaca uşaqlara oğlan rəqsləri öyrədirlər. Xahiş edirəm bu, qızların tərbiyəsini pozmaqdır".

# Xalq artisti: "Hamıdan çox problemim var"



***"Zərif Məleykənin çiynində çox böyük yüklər daşınır. Xaricdən zərif, incə görünürəm. Bir kişinin görmədiyi qədər yük var çiynimdə".***

"Unikal" bizim.media-ya istinadən bildirir ki, bu sözləri Xalq artisti Məleykə Əsədova qonaq olduğu "Xəzərin sahilində" verilişində deyib.

Aktrisa çətin həyatından və təkbaşına böyütdüyü qızı Gülərdən söz açıb: "Həyatı gözəlləşdirən də, çirkinləşdirən də insandır. Elə zəmanəyə gəlmişik ki, insanlardan nələr görürük. Çox çətindir. Təkbaşıma Allahıma güvənərək, əlim Allahda, yerdə isə zirehli paltarımı geyinib övladımı qoruyuram. Mən qoruyuram, böyük-böyük danışmayım. Evimdə də deyirəm, qanun qanundur. Yalanı sevmirəm. Kiminsə haqqında qeybət etmirəm. Niyə bir insan haqqında pis danışım? Elə yaxşı xüsusiyyətlərini danışaram da. Mənim hamının problemindən çox problemim var. Niyə danışım bunu? Gedib onu özüm həll edəcəyəm".

# "Niyə bunu mediadan gizlədirsiniz?"- Gənc ifaçı Hiss



***Gənc ifaçı Hiss (Röya Məmmədova) açıqlamaları ilə gündəmə gəlib.***

"Unikal" xebersiz.az-a istinadən bildirir ki, "Zarafat bir yana" verilişinin qonağı olan müğənni tamaşaçıların verdiyi sualları canlı efirdə cavablandırıb.

Belə ki, tamaşaçılardan biri ona "Siz uşaqlar evinə tez-tez yardım edirsiniz, niyə bunu mediadan gizlədirsiniz?" -, deyə sual ünvanlayıb.

Hiss isə cavabında bunları deyib: "Təbii ki, yardımlar edirəm. Hətta mənimlə birgə uşaq evində böyüyən uşaqlara da dəstək oluram. Bunu paylaşmağa gərək duymuram. Kimə və niyə özümü sübut etməyə çalışım ki? Bunu etsəm özümü saxta hiss edərəm. Əsas odur ki, mən, mənim yaxın ətrafım və yardım etdiklərim bunu bilir. Paylaşmağa isə kompleksim var".

# Çimnaz Xatirəni təhqir etdi

***Xəbər verdiyimiz kimi, müğənni Xatirə İslam ötən gün ziyafət geyimində idman edərək çəkilən videosunu izləyiciləri ilə bölüşüb.***



Axşam.az-ın məlumatına görə, sənətçinin bu addımı tənqid edilib. İzləyicilərinin əksəriyyəti bu hərəkəti ona yaraşdırmayıblar.

Aktrisa Çimnaz Sultanova isə Xatirəyə yazdığı şərhlə diqqət çəkib. O, "@axsamaz" instaqram səhifəsində X.İslamın videosuna şərh yazaraq, onu təhqir edib. Belə ki, aktrisa müğənninin ünvanına qeyri-etik ifadə işlədib, daha sonra isə gülüş emojiləri qoyub.

# Ülviyyə ilk dəfə Muradla boşanmasından danışdı

***Aktrisa Ülviyyə Xəlilbəyova aktyor həyat yoldaşı Murad İsmayılla boşanmasından ilk dəfə danışıb.***

Axşam.az-ın məlumatına görə, bu barədə aktrisa "Suallar cavablar" verilişinə müsahibəsində deyib. O, Muradla rəsmən boşandığını təsdiqləyib: "Şir bürcü ilə əkizlər heç vaxt tutmur. Buna qədər paylaşılan heç bir xəbər doğru olmayıb. Duyğusal biriyəm, paylaşmışam, saytlar verib. Sırf xəbər olsun deyə etməmişəm. Heç mənə sual verməyib paylaşırdılar. Özüm belə özümlə bağlı xəbərləri görməkdən bezmiş adamam. Bəli, rəsmən boşanmışam".

Ülviyyə qayınanası və baldızından şikayətçi olması ilə bağlı çıxan xəbərləri təkzib edib: "Mənim ümumiyyətlə baldızım yoxdur".

Ülviyyə hazırda Muradla olan münasibətlərinə toxunub: "Muradla münasibətim var, uşaqlarımın atasıdır. Biz dostuq. Uşaqlar mənimlə qalır. Ataları ilə görüşürlər".

O, Muradla yenidən barışmayacağını deyib: "Bu haqda düşünmürəm. Biz onsuz küsülü deyilik, dostluğumuz davam edir. Düşmən deyilik. Uşaqlarımız var. Yenidən bir araya gəlmək fikrim yoxdur".

Qeyd edək ki, onların bu evlilikdən iki oğlu var.




## Şuşada Dövlət Komitəsinin təşkilatçılığı ilə konfrans keçirilib

***Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Şuşa şəhərində "İslam dünyasında qadınlar: ənənələr və çağırışlar" mövzusunda konfrans keçirilib.***

Tədbiri açan Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, konfransın məqsədi qadının dəyəri, onun statusu və hüquqları barədə mövcud yanaşmalar haqqında ətraflı fikir mübadiləsi aparmaqla İslam mədəniyyətinin təbliğində qadınların rolunun gücləndirilməsinin vacibliyini bir daha vurğulamaq, onları İslam dünyasının inkişafına yönələn bütün istiqamətlərdə fəal olmağa çağırmaqdır.

Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsini önəmli hadisə olduğunu vurğulayan komitə sədri deyib: "Bu gün Azərbaycan siyasi, iqtisadi və mədəni cəhətdən nəinki regional, hətta qlobal dialoq məkanına çevrilib. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 ölkəmizdə keçiriləcək. Məlum olduğu kimi, dövlətimizin başçısı İlham Əliyevin müvafiq Sərəncamı ilə 2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. İndi Yer kürəsinin hər hansı regionunda baş verən təbii fəlakət təkcə həmin ərazinin deyil, bütün dünyanın problemi sayılır. Bəşəriyyətin yaranması, inkişaf etməsi, eləcə də yenilənməsində əvəzsiz rol oynayan qadınlar bu gün belə qlobal problemləri aradan qaldırmağın yollarını kişilərlə birgə axtarırlar. COP29-un Təşkilat Komitəsində qadınların da iştirakı bunun əyani sübutudur".

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov ölkəmizin İslam dünyasının bir parçası olduğunu, tarixdə qazandığı nailiyyətləri ilə bir çox ilklərə imza atdığını söyləyib. Şərqdə ilk qadın opera bəstəkarının, ilk təyyarəçi xanımın, ilk qadın kinorejissorun azərbaycanlı olduğunu xatırladan komitə sədri bunun Azərbaycan qadınının İslam dünyasında mütərəqqi ənənələrin inkişafına önəmli töhfələr verdiyini təsdiqləyən faktların yalnız bir hissəsi olduğunu bildirib. Deyib ki, bu, həmçinin xalqımızın böyüklüyünü, müdrikliyini, ümumbəşəri dəyərlərə bağlılığını göstərir.

İşğala son qoyduqdan sonra dövlətimiz azad olunmuş torpaqlarda xariqələr yaratdığını söyləyən R.Məmmədov Qarabağda həyata keçirilən bərpa və quruculuq işlərində ən həssas istiqamətlərdən birinin tarixi, dini və mədəniyyət abidələrinin bərpası olduğunu söyləyib. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən Qarabağ və Şərqi Zəngəzurda tarixi və mədəniyyət abidələrinin bərpası işlərinin uğurla həyata keçirildiyini diqqətə çatdırıb.

Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı ölkəsindəki qadınların hüquqlarından danışıb, onların bir çox sahələrdə rəhbər vəzifələrdə çalışdıqlarını diqqətə çatdırıb. "Türkiyə və Azərbaycanda qadın hüquqlarına hörmət bir çox ölkələrə baxdıqda daha ön sıralarda yer alır", - deyə o bildirib.

Səfir qeyd edib ki, ölkələrimiz arasında qadın və uşaqlarla bağlı bir çox proqramlar, layihələr həyata keçirilir.

VI çağırış Milli Məclisin deputatı, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova vurğulayıb ki, qadın və uşaq hüquqları ilə bağlı ciddi maarifləndirmə aparılmalıdır. Ümidvaram ki, görülən tədbirlər nəticəsində müsəlman qadınları dünyada terrorçu kimi deyil, vəkil, siyasətçi, həkim, müəllim, savadlı insan, ailənin təməli kimi tanınacaqlar.

# Oqtay Əsədovun mandatsız qalmasının gizlinləri

## Sabiqlərin izi ilə: sabiq spikerin namizədliyi niyə yenidən irəli sürülmədi?

***"Unikal" qəzeti keçmiş məmurların və eks-deputatların hazırda harada və nə işlə məşğul olduqları barədə silsilə yazıların dərcini davam etdirir. "Sabiqlərin izi ilə" adlandırdığımız həmin silsilədən bugünkü məqaləmiz Milli Məclisin sabiq sədri Oqtay Əsədov haqqındadır.***

69 yaşlı Əsədov qəfil karyera yüksəlişi yaşayanlardandır: o, 1981-ci ildən Azərbaycan Baş Quraşdırma və Xüsusi Tikinti İşləri Nazirliyinin "Azərsantexquraşdırma" Trestində elə də yüksək vəzifələr tutmadığı halda 1996-cı ildsə gözlənilməz şəkildə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, cəmi 8 il sonra isə "Azərsu" Səhmdar Cəmiyyətinin prezidenti vəzifələrinə irəli çəkilmişdi. Bu postda cəmi 1 il qaldıqdan sonra isə yenə də heç kimin proqnozlaşdırmadığı halda Milli Məclisin sədri seçilən Əsədov həmin vəzifədə 2020-ci ilədək işlədi. Son 4 ildə isə Milli Məclisin sıravi üzvü olan Oqtay müəllimin bundan sonra mandatsız qalacağı artıq dəqiqləşib.



Belə ki, sabiq spikerin adı YAP-ın deputatlığa namizədlər siyahısında yer almayıb. Bu isə cəmiyyətdə maraqla qarşılanıb, eyni zamanda suallar doğurub. Nəticədə Əsədovun namizədliyinin irəli sürülməməsi ilə bağlı müxtəlif versiyalar meydana çıxıb. Versiyalardan biri sabiq spikerin yaşı ilə bağlıdır. Lakin hakim partiyanın siyahısında hazırda 69 yaşı olan Oqtay müəllimdən yaşlı namizədlər də var. Məsələn, bu ilin martın 12-də 79 yaşı tamam olan və 80 yaşına adlayan Eldar İbrahimovun namizədliyi 4 saylı Naxçıvan şəhər seçki dairəsindən irəli sürülüb.

Hakim partiyanın başqa bir namizədi Əli Əhmədov isə 71 yaşındadır.

YAP namizədlərindən Mübariz Qurbanlı ilə Səyyad Salahlı da Oqtay müəllimdən yaşca böyükdürlər - onların müvafiq olaraq 70 və 72 yaşları var.

Bütün bu sadalananlardan aydın olur ki, keçmiş spikerin namizədliyinin irəli sürülməməsini Əsədovun yaşı ilə əlaqələndirmək bir o qədər də məntiqli görünmür.

Elə isə Milli Məclisin keçmiş sədri nə üçün mandatsız qala bilərdi? Bu suala cavab olaraq müxtəlif məqamlara diqqət çəkilir. Onlardan biri ötən il Oqtay Əsədovun qardaşı Nazim Əsədovun ətrafında yaşanan qalmaqaldır. Həmin vaxt KİV yazırdı ki, N.Əsədovun Azərbaycandan çıxışı məhdudlaşdırılıb.

Buna səbəb iş adamı kimi fəaliyyət göstərən Nazim müəllimin vergi və sosial ödənişlərdən yayınmasıdır.

Belə ki, Dövlət Vergi Xidməti Bakı Kommersiya Məhkəməsinə müraciət edərək N.Əsədova məxsus "İnam", "Nurvin-ST" və "Nəsimi-44" şirkətlərinin Dövlət Sosial Müdafiə Fonduna olan 20 min manata yaxın borcunu ödəmədiyini bildirib. Vergi Xidməti biznesmenin ölkədən çıxışına "stop" qoyulmasını xahiş edib.

Ərizəyə hakim Zaur Pirverdiyevin sədrliyi ilə baxılıb. Hakim iddianı təmin edib. Nazim Əsədovun Azərbaycanı tərk etmək hüququ müvəqqəti məhdudlaşdırılıb.

Qeyd edək ki, sabiq spikerin qardaşının adı həmin vaxtadək mediada bir neçə dəfə tikinti sahəsindəki fəaliyyəti ilə gündəmə gəlmişdi.Digər bir versiya isə son illərdə Oqtay Əsədovun ailə biznesi ilə bağlı xəbərlərin intensivləşməsidir. Məsələn, 2 il öncə onun həyat yoldaşı Zemfira Əsədovaya məxsus olduğu bildirilən "Arizarum Qrup" adlı MMC-nin Rusiyada fəaliyyəti ilə bağlı məlumatlar ortaya çıxmışdı. Bildirilirdi ki, bu şirkət 14.01.1998-ci ildən fəaliyyət göstərir. Hüquqi ünvanı Moskva şəhəri, Bakı küçəsi, ev 29-da yerləşən şirkətin sahibi Əsədova Zemfira Adil qızı, direktoru isə Nazarova Larisa Aleksandrovnadır. Nizamnamə kapitalı 10 min rubl (133 dollar) olan şirkətin restoran sektorunda fəaliyyət göstərdiyi qeyd olunur. "Daha əvvəl də mətbuatda "Arizarum Qrup" MMC sahibi olan Əsədova Zemfira Adil qızının Milli Məclisin sabiq sədri Oqtay Əsədovun həyat yoldaşı Əsədova Zemfira Adil qızı ilə eyni şəxs olduğu barədə məlumatlar yer alıb. Bu məlumatlar Oqtay Əsədov və həyat yoldaşı tərəfindən təkzib olunmayıb" deyə yerli KİV yazırdı.

Bundan başqa, sabiq spikerə aid olduğu və qardaşı oğlu Cavid Əsədov tərəfindən idarə edildiyi deyilən "Arash Medical Company" MMC ilə bağlı da mətbuatda bir-birindən ilginc xəbərlər yer alıb. Məsələn, məlum olub ki, 2011-ci ildə dövlət qeydiyyatına alınan bu şirkət sonrakı 9 ildə nə az, nə çox, düz 250 milyon manatlıq tender udub. Adıçəkilən MMC bu müddətdə 366 satınalma müsabiqəsində qalib gəlib ki, onların da əhəmiyyətli hissəsini Səhiyyə Nazirliyi keçirib.

2020-ci ildən sonra isə "Arash Medical Company"nin udduğu tenderlərin sayında müəyyən qədər səngimə müşahidə olunub. Bu isə Əsədovun spiker postundan ayrılmasına təsadüf edir.

Beləliklə, yuxarıda yazılanları ümumiləşdirdikdə Milli Məclisin sabiq sədrinin mandatsız qalmasını onun yaşı ilə əlaqələndirməyin ağlabatan olmadığı bir daha aydınlaşır və gerçək səbəbi daha dərinlərdə axtarmağın lazım gəldiyinə şübhə yeri qalmır.

***Toğrul Əliyev***

24_27 IYUl-QARA.qxd 7/18/2024 11:46 PM Page 4



# Ermənistan Londonda dialoqdan yayındı: İngiltərənin vasitəçiliyi narahatlıq yaradıb

***Xəbər verdiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Kir Starmerin dəvəti ilə “Avropa Siyasi Birliyi” 4-cü Zirvə Toplantısında iştirak etmək üçün İngiltərədə işgüzar səfərdədir.***

Dövlətimizin başçısı “Avropa Siyasi Birliyi” 4-cü Zirvə toplantısının açılış plenar sessiyasında iştirak edib. Prezident Zirvə toplantısı çərçivəsində dövlət və hökumət rəhbərləri ilə görüşüb, müzakirələr aparıb. Ölkə rəhbərinin digər liderlərlə də təmasları olub. Maraqlı məqam odur ki, Ermənistan tərəfi Londonda Azərbaycanla görüşdən imtina edib. Bu barədə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri, Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev deyib.

Diplomat ”Avropa Siyasi İcmasının Londonda keçirilən görüşü çərçivəsində Ermənistanla Azərbaycan arasında görüşün keçirilməsi nəzərdə tutulurdu. Bu, baş tutacaqmı?” sualına belə cavab verib:



”Avropa Siyasi İcmasına ev sahibliyi edən Böyük Britaniya tərəfindən belə bir görüşün keçirilməsi təklifi ilə çıxış edilmişdir və bunun Münxen Təhlükəsizlik Konfransında Azərbaycan Respublikasının Prezidenti və Ermənistanın baş naziri arasında baş tutmuş görüş formatında olması təklif olunurdu. Belə ki, Münxen Təhlükəsizlik Konfransında da Almaniyanın kansleri Olaf Şolts görüşün əvvəlində iştirak etmiş və bundan sonra görüş ikitərəfli formatda Azərbaycan və Ermənistan arasında davam etmişdi. Böyük Britaniya tərəfindən ev sahibi olaraq eyni formatlı görüş təklif olunurdu.

Amma Ermənistan tərəfi bundan imtina etdi. Belə ki, görüşün əvvəlində Britaniya Baş nazirinin iştirakı, sonra isə görüşün Azərbaycan və Ermənistan arasında davam etməsi formasında olmalı idi. Ermənistanın bu görüşdən imtina etməsini biz onun dialoqdan və sülh gündəliyinin irəli aparılmasından geri çəkilmək niyyətinin bir təzahürü kimi qiymətləndiririk. Müxtəlif platformalarda Ermənistan sülh haqqında danışdığı halda sülh gündəliyinin irəli aparılmasına xidmət edən görüşdən imtina etməsi heç bir halda başadüşülən deyildir və beynəlxalq ictimaiyyət özü bunu dəyərləndirməlidir ki, Ermənistan əslində dialoq imkanlarını qiymətləndirmək, irəli aparmaq əvəzinə bundan imtina edir. Biz Böyük Britaniyanın belə bir sülh təşəbbüslüyünü öz tərəfimizdən yüksək qiymətləndiririk”.

Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramov Ermənistanla danışıqlarda sülh sazişi mətni üzrə əhəmiyyətli irəliləyişə baxmayaraq, Ermənistan konstitusiyasında və qanunvericilik aktlarında Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı davam edən iddiaların sülh prosesinə əsas maneə olduğunu deyib. “Avropa Siyasi İcması” sammiti çərçivəsində Birləşmiş Krallığın baş nazirinin təşəbbüsü və iştirakı ilə Azərbaycan və Ermənistan liderləri arasında görüşün keçirilməsi üçün səy göstərilməsinə görə nazir Ceyhun Bayramov tərəfindən təşəkkür ifadə olunub, məhz Ermənistan tərəfindən imtina səbəbindən bu görüşün baş tutmamasının sülh prosesinə töhfə vermədiyi qeyd edilib.

Politoloq Elxan Şahinoğlu bizimlə söhbətində deyib ki, Ermənistanın baş naziri Nikol Paşinyan Böyük Britaniyanın paytaxtında keçirilən “Avropa Siyasi Birliyi”nin 4-cü zirvə toplantısı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdən imtina etsə də, London iki lideri görüşdürmək üçün əlavə diplomatik səylər göstərəcək: “Çünki Nikol Paşinyan və İlham Əliyev fevralda Berlində Təhlükəsizlik Konfransı çərçivəsində Almaniyanın kansleri Olaf Şoltsun iştirakıyla görüşüblər, bundan sonra Vaşinqtonda NATO sammiti çərçivəsində Azərbaycan və Ermənistan xarici işlər nazirləri Ceyhun Bayramov və Ararat Mirzoyan dövlət katibi Entoni Blinkenin iştirakıyla üçtərəfli görüş keçiriblər, indi London da Avropa toplantısı çərçivəsində fürsətdən istifadə edib Azərbaycan və Ermənistan liderlərinin görüşünü təşkil etmək istəyir. Bu Böyük Britaniyaya Cənubi Qafqazda maraqlı olduğunu, o cümlədən Bakı ilə İrəvan arasında Berlin və Vaşinqton qədər moderatorluğunu göstərmək üçündür”.

“Əminəm ki, bu tapşırığı Rusiya verib. Bu dəqiqə Rusiyadan Paşinyana Qərb istiqamətində olan siyasi addımlarına görə güclü təzyiqlər var. Ermənilər bu addımla Rusiyaya göstərmək istəyirlər ki, ona sadiqdirlər”. Bu sözləri Axar.az-a açıqlamasında keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov Böyük Britaniyada keçirilən Avropa Siyasi Birliyinin 4-cü sammiti çərçivəsində Ermənistan Baş naziri Paşinyanın Azərbaycan Prezidenti ilə görüş təklifindən imtina etməsi haqda yayılan məlumata münasibətində deyib.

“Bu imtinanın sonrasını gözləmək lazımdır, çünki tədbirlər davam edir. Aydındır ki, görüşün təşəbbüskarı Böyük Britaniya tərəfidir. Bəzi mənbələr bildirir ki, ermənilər Böyük Britaniyanın vasitəçilik etməsini istəmirlər. Həmçinin Ermənistan mühitində müxtəlif versiyalar səslənir ki, noyabrda onlar Qərbə yönələn siyasətdən imtina etməlidir. Çünki hazırda Baydenin qalib gəlməsi şansı çox azdır və İrəvanın Qərbə yönəli siyasətində ermənilərə təkcə Fransanın dəstəyi bəs eləməz. Ona görə də Qərblə hansısa inteqrasiya prosedurlarına qoşulmağa ehtiyat edirlər”, - politoloq bildirib. T.Zülfüqarovun sözlərinə görə, bu imtinanın səbəbini sülhdən qaçmaq kimi qəbul etmək hələ tezdir.

Beynəlxalq Münasibətlər və Diplomatik Araşdırmalar Mərkəzinin rəhbəri Samir Hümbətov Bakıvaxtı.az-a açıqlamasında deyib ki, Prezident İlham Əliyevin “Avropa Siyasi Birliyi” 4-cü Zirvə toplantısında iştirakının bizim üçün bir sıra müsbət məqamları var.

Ekspertin sözlərinə görə, dövlət başçısının London səfəri və Sammitdə iştirakı həm regional, həm də qlobal səviyyədə mövqelərinin güclənməsinə təsir edə bilər: ”Qarşıdan COP29 tədbiri və ondan öncə parlament seçkiləri gəlir. Azərbaycanın mövqeyinin və həyata keçirdiyimiz siyasətə qarşı ciddi anti-Azərbaycan qüvvələr var ki, bütün gücləri ilə fəaliyyətə keçiblər. Xüsusən, Fransa-Ermənistan cütlüyünün cəhd göstərdiyi, çalışdığı qüvvələr var ki, onlar Azərbaycanı hər addımda ləkələməyə çalışırlar”.

Müsahibimizə görə, belə məqamda Azərbaycan Prezidentinin Böyük Britaniya baş naziri Kir Starmerin dəvəti ilə 4-cü Zirvə toplantısında iştirak etməsi xüsusi dəyərləndirilməlidir: “Nəzərə almaq lazımdır ki, burada Azərbaycan həm İsveçrə, Macarıstan və Lüksemburq rəhbərlikləri ilə görüşlər keçirib. Azərbaycanın İkinci Qarabağ müharibəsindən sonra beynəlxalq səviyyədə həyata keçirdiyi açılım siyasəti doğru istiqamətdədir. Bu, xüsusi əhəmiyyət daşıyır. Prezidentin görüşlər çərçivəsində müxtəlif ölkə liderlərini COP29-a dəvət etməsi də mühüm amildir. Nüfuzlu qonaqların iştirakı tədbirin daha yüksək səviyyədə keçirilməsinə imkan verəcək”.

Analitik vurğulayıb ki, Azərbaycan prezidenti görüşdüyü ölkə rəhbərləri ilə ikili əlaqələrin - siyasi-iqtisadi, hərbi-təhlükəsizlik və diplomatik, mədəni sahələr üzrə əməkdaşlığın dərinləşməsini müzakirə edir: ”Azərbaycanla iqtisadi əlaqələrin inkişaf etdirilməsinin perspektiv imkanlarının müzakirəsi xüsusi əhəmiyyət daşıyır. O baxımdan belə təmaslar hər iki tərəf üçün önəmlidir. Azərbaycanın artan mövqeyi buna imkan verir. Prezident İlham Əliyev ikili əməkdaşlığa nə qədər həssaslıqla yanaşdığını və əlaqələrin dərinləşməsində əsas təminatçı olduğunu ortaya qoyur. 2024-cü ilin bu aylarınadək Azərbaycanın xarici ticarət dövriyyəsi 15 milyard dolların üzərindədir. Londondakı görüşlərin də ciddi nəticəsinin olacağı şübhəsizdir”.

***M.İbrahimli***



## Şarl Mişel Azərbaycan-Ermənistan təmaslarından danışdı

***Azərbaycan və Ermənistan arasında birbaşa dialoqun asanlaşdırılması üçün Avropa İttifaqı (Aİ) adından mümkün olan hər şeyi etməyə çalışmışam.***

Bunu Aİ Şurasının Prezidenti Şarl Mişel Avropa Siyasi Birliyinin IV Sammiti çərçivəsində jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, Brüssel son aylarda iki ölkə arasında birbaşa təmasların mümkünlüyünü görüb.

Qeyd edək ki, Avropa Siyasi İcmasına ev sahibliyi edən Böyük Britaniya Azərbaycan və Ermənistan liderləri arasında görüşün keçirilməsi təklifi ilə çıxış edib və bunun Münxen Təhlükəsizlik Konfransında Azərbaycan Respublikasının Prezidenti və Ermənistanın baş naziri arasında baş tutmuş görüş formatında olması təklif olunurdu.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri, Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev bildirib ki, Münxen Təhlükəsizlik Konfransında da Almaniyanın kansleri Olaf Şolts görüşün əvvəlində iştirak etmiş və bundan sonra görüş ikitərəfli formatda Azərbaycan və Ermənistan arasında davam etmişdi:

”Böyük Britaniya tərəfindən ev sahibi olaraq eyni formatlı görüş təklif olunurdu. Amma Ermənistan tərəfi bundan imtina etdi. Belə ki, görüşün əvvəlində Britaniya Baş nazirinin iştirakı, sonra isə görüşün Azərbaycan və Ermənistan arasında davam etməsi formasında olmalı idi. Ermənistanın bu görüşdən imtina etməsini biz onun dialoqdan və sülh gündəliyinin irəli aparılmasından geri çəkilmək niyyətinin bir təzahürü kimi qiymətləndiririk”.

24_27 IYUI-QARA.qxd 7/18/2024 11:47 PM Page 5



# Prezident İngiltərədə mühüm görüşlər keçirdi



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də "Avropa Siyasi Birliyi" 4-cü Zirvə toplantısı çərçivəsində Macarıstanın Baş naziri Viktor Orban ilə söhbət edib.***

"Unikal" xəbər verir ki, dostluq şəraitində keçən söhbət zamanı ölkələrimiz arasında ikitərəfli munasibətlər və əməkdaşlıqla bağlı məsələlər müzakirə olunub.

Macarıstanın Baş nazirinin Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün Şuşaya səfəri və bu çərçivədə keçirilən görüşlər məmnunluqla xatırlanıb.

Ölkə lideri Zirvə toplantısı çərçivəsində İsveçrə Konfederasiyasının Prezidenti Viola Amher ilə müzakirə aparıb. Azərbaycan ilə İsveçrə arasında ikitərəfli münasibətlər və regional sülh gündəliyinin inkişaf etdirilməsi ilə bağlı söhbət edilib.

İsveçrə şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa-quruculuq işlərinə töhfəsi müzakirə olunub.

Söhbət zamanı COP29 və iqlim dəyişmələri ətrafında da fikir mübadiləsi aparılıb.

Dövlət başçısı daha sonra Viktor Orbanla bir masa arxasında əyləşərək ünsiyyətlərini davam etdiriblər. Daha sonra Bolqarıstan prezidenti Rumen Radev İlham Əliyevin siyasi danışıqlar masasına qoşulub.

NATO-nun baş katibi Yens Stoltenberq də daha sonra eyni masaya əyləşib. Serbiya prezidenti Adeksandr Vuçiç də İlham Əliyevlə söhbət edib.

Prezident Oksfordda Avropa Siyasi Birliyinin IV Sammitinin birinci plenar sessiyası çərçivəsində Ukrayna Prezidenti Volodimir Zelenski ilə də söhbət edib. Tərəflərin konkret nəyi müzakirə etdiyi hələlik məlum deyil.

Sonuncu sessiyadan sonra isə İlham Əliyev qarşı tərəfin müraciətinə əsasən Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə görüşüb.

# XİN rəhbərindən Ermənistanın "sülhdənqaçma fəndi"nə reaksiya

## Ceyhun Bayramov: "Ermənistan konstitusiyasında və qanunvericilik aktlarında ölkəmizin ərazi bütövlüyü və suverenliyinə qarşı davam edən iddiaları sülh prosesində əsas maneədir"

***Avropa Siyasi Birliyinin Birləşmiş Krallığın Vudstok şəhərində keçirilən sammiti çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Birləşmiş Krallığın xarici işlər, birlik və inkişaf məsələləri üzrə dövlət katibi Devid Lemmi arasında görüş keçirilib.***

"Unikal" XİN-ə istinadən xəbər verir ki, görüş zamanı, Azərbaycan-Birləşmiş Krallıq arasında strateji tərəfdaşlıq əlaqələrinin müxtəlif aspektləri və gələcək perspektivləri, regional və beynəlxalq gündəliyin qarşılıqlı maraq doğuran məsələləri, eləcə də Azərbaycan-Ermənistan normallaşma prosesinin cari vəziyyəti müzakirə edilib.



Azərbaycan və Birləşmiş Krallıq arasında bütün sahələrdə, xüsusilə də energetika, təhsil, humanitar əlaqələr kimi istiqamətlərdə qarşılıqlı faydalı əməkdaşlığın olduğu, Azərbaycanın mühüm ticarət tərəfdaşı kimi xüsusi əhəmiyyəti vurğulanıb. Birləşmiş Krallıq şirkətlərinin Azərbaycan iqtisadiyyatının istər neft, istərsə də qeyri-neft sektorunda uğurla fəaliyyət göstərdiyini, iqtisadi əməkdaşlığın daha da dərinləşməsi üçün geniş imkanların mövcudluğu bildirilib.

Bununla yanaşı, ölkələrimiz arasında yaşıl enerji sahəsində əməkdaşlıq məsələləri nəzərdən keçirilib, bu sahədə ölkəmizlə əməkdaşlıq üçün geniş perspektivlər təqdir olunub. Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyinin mövcud əməkdaşlıq gündəliyində iqlim fəaliyyəti istiqamətinin gücləndirilməsinə töhfə verə biləcəyi qeyd edilib.

Azərbaycanın üzləşdiyi mina təhdidi nəzərə alınaraq, humanitar minatəmizləmə sahəsində ölkəmizə dəstəyin əhəmiyyəti vurğulanıb.

Görüş zamanı tərəflər iki ölkə arasında mövcud dialoq, qarşılıqlı səfərlər və təmasların, o cümlədən siyasi məsləhətləşmələrin münasibətlərin inkişafına mühüm töhfə verdiyini bildiriblər.

Nazir Ceyhun Bayramov bölgədə mövcud olan cari vəziyyət, o cümlədən sülh prosesi ilə bağlı Azərbaycan tərəfindən atılan addımlar, Azərbaycanın Ermənistanla münasibətlərin normallaşması ilə bağlı mövqeyi, azad olunmuş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma işləri ilə bağlı məlumat verib. Ermənistanla danışıqlarda sülh sazişi mətni üzrə əhəmiyyətli irəliləyişə baxmayaraq, Ermənistan konstitusiyasında və qanunvericilik aktlarında ölkəmizin ərazi bütövlüyü və suverenliyinə qarşı davam edən iddiaların sülh prosesində əsas maneə olduğu diqqətə çatdırılıb.

"Avropa Siyasi İcması" sammiti çərçivəsində Birləşmiş Krallığın baş nazirinin təşəbbüsü və iştirakı ilə Azərbaycan və Ermənistan liderləri arasında görüşün keçirilməsi üçün səy göstərilməsinə görə nazir Ceyhun Bayramov tərəfindən təşəkkür ifadə olunub, məhz Ermənistan tərəfindən imtina səbəbindən bu görüşün baş tutmamasının sülh prosesinə töhfə vermədiyi qeyd edilib.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər üzrə fikir mübadiləsi aparılıb.

# Müharibədən sonra minadan təmizlənən ərazilərin sahəsi bu qədərdir

***2020-ci ilin noyabr ayından bu günə qədər 148 min hektardan çox ərazi minalardan və müharibənin digər partlayıcı qalıqlarından təmizlənib.***



Bunu Azərbaycan Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov "ANAMA" tammetrajlı sənədli filminin təqdimat mərasimində çıxışı zamanı deyib. "Bu müddət ərzində 124 min ədəddən artıq mina və müharibənin digər partlayıcı qalıqları aşkar edilərək zərərsizləşdirilib", - deyə V.Süleymanov diqqətə çatdırıb.

# Ermənistan öz təhlükəsizliyini riskə atır - Zaxarova

***Ermənistan Qərblə əməkdaşlıq edərək öz təhlükəsizliyini riskə atır.***

Bunu Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova bildirib.

O qeyd edib ki, Ermənistanda NATO ilə qarşılıqlı əlaqəni artırmağa üstünlük verirlər - təbii ki, bu qəribə hadisədir:



"Onlar Vaşinqtonda keçirilən alyans sammitində iştirak edirlər, birgə hərbi manevrlər keçiriblər. Bunun bariz nümunəsi kimi ölkə ərazisində keçirilən "Eagle Partner 2024" birgə ABŞ-Ermənistan təlimlərini misal çəkmək olar.Bu təkcə təəssüf deyil, həm də Ermənistanın gələcəyi üçün narahatlıq doğurur, çünki Aİ və ABŞ bir çox ölkələrlə belə maxinasiyaları dəfələrlə edib. Bunun necə bitdiyini çox yaxşı bilirsiniz: onlardan istifadə olunur, sonra gərəksiz kimi atılırlar"


Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5"
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000


# Bakıda Fransa Koloniyalarının Beynəlxalq Azadlıq Cəbhəsi yaradıldı

***Artıq məlumat verildiyi kimi, Qvadelupanın Azadlığı naminə Xalq Birliyinin təşkilatçılığı və Bakı Təşəbbüs Qrupunun (BTQ) dəstəyi ilə Fransa müstəmləkəçiliyindən əziyyət çəkən Korsika, Melaneziya, Polineziya, Karib və Antil adalar qrupundan olan 20-yə yaxın siyasi partiya və müstəqillik hərəkatlarının rəhbər şəxslərinin iştirakı ilə 17-18 iyul tarixlərində Bakıda birinci Qurultay keçirilib.***

"Qafqazinfo" Report-a istinadən xəbər verir ki, iki gün davam edən qapalı müzakirələrin yekunu kimi Fransa koloniyalarında müstəqillik uğrunda mübarizə aparan siyasi partiya və hərəkatların rəhbər şəxsləri vahid Cəbhənin Fransa Koloniyalarının Beynəlxalq Azadlıq Cəbhəsinin yaradılmasına dair razılığa gəliblər.

Qurultayda iştirak edən 17 Fransa və Niderland koloniyalarının səlahiyyətli rəsmiləri Beynəlxalq Azadlıq Cəbhəsinin yaradılması haqqında yekun Bəyannaməni imzaladılar. Həmçinin, iştirakçılar Cəbhənin Nizamnaməsini təsdiqlədilər.

Bəyannamədə Azərbaycanın dekolonizasiya prosesindəki vacib rolu, habelə BTQ müstəmləkə ərazilərinin azadlığı uğrunda apardığı mübarizəyə verdiyi dəstək və sadiqlik xüsusi vurğulanıb, ölkəyə minnətdarlıq ifadə olunub.

Sənəddə Fransa kolonializminin irqçi və repressiv siyasəti pislənilib, bu xüsusda Yeni Kaledoniya və digər müstəmləkə ərazilərində Fransa hökuməti tərəfindən həyata keçirilən cinayətlər kəskin qınanılıb.

Beynəlxalq Azadlıq Cəbhəsinin yaradılması Fransa müstəmləkəçiliyinə qarşı mərkəzləşdirilmiş platformanın - vahid çətirin yaradılması deməkdir. Qurultay iştirakçıları müstəqillik uğrunda mübarizədə daha sıx təşkilatlanma, habelə Fransa kolonializminə qalib gələrək müstəqillik əldə etmək yolunda fəaliyyətlərinin əlaqələndirilməsinə qərar veriblər.

Hazırda müstəmləkə altında yaşayan digər ərazilər üçün üzvlüyə açıq olacaq Cəbhənin yaradılması Fransa müstəmləkələrinin dekolonizasiya prosesində səylərini birləşdirmək və öz müqəddəratlarını təyinetmə məsələlərini dünya ictimaiyyətinə dolğun şəkildə çatdırmaq məqsədi daşıyır. Bundan başqa, Cəbhənin gələcək fəaliyyətinə müstəmləkəçiliyin aradan qaldırılmasına dair strategiyanın, o cümlədən, Fəaliyyət Planının və Gündəliyinin hazırlanaraq beynəlxalq təşkilatlara təqdim edilməsi kimi məsələlər daxildir.

Qeyd edək ki, Fransa Koloniyalarının Qurultayının keçirilməsi məhz Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə lokomotiv rolunu üzərinə götürərək dekolonizasiya prosesinə verdiyi töhfələr nəticəsində mümkün olub.

Xatırladaq ki, Bakı Təşəbbüs Qrupu (BTQ) Fransa müstəmləkələrinin azadlıq uğrunda ədalətli mübarizəsinə dəstəyini davam etdirir.

24_27 IYUl-QARA.qxd 7/18/2024 11:47 PM Page 6



# İlham Əliyev "Enerji və bağlantı" mövzusunda dəyirmi masada çıxış edib

***Azərbaycan Prezidenti İlham Əliyev iyulun 18-də Oksfordda "Avropa Siyasi Birliyi"nin 4-cü Zirvə toplantısı çərçivəsində "Enerji və bağlantı" mövzusunda dəyirmi masada iştirak edib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev tədbirdə çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı:**



- Enerji sahəsində Bakıda müəyyənləşdirdiyimiz strateji tərəfdaşlıq bizim Avropaya qaz təchizatımızın 2027-ci ilin sonuna qədər ikiqat artırılmasını nəzərdə tutur. Biz bu hədəfə doğru irəliləyirik. 2021-ci ildə Avropa qitəsinə bizim qaz təchizatımız ildə 8 milyard kubmetr təşkil edirdisə, bu il bu göstərici 13 milyard kubmetrə yaxın olacaq. 2021-ci ildə ümumi ixrac 18 milyard kubmetr təşkil edirdisə, bu il bu göstərici 25 milyard kubmetr olacaq. İxracın yarıdan çoxu Avropaya gedir.

Azərbaycanın təbii qazını səkkiz ölkə alır, onlardan beşi - Bolqarıstan, Yunanıstan, İtaliya, Macarıstan və Rumıniya Avropa İttifaqının üzvüdür. İkisi İttifaqa daxil olmaq üçün namizəd ölkədir - Gürcüstan və Serbiya, eləcə də Türkiyə. Sessiyadan əvvəl cənab Baş nazirlə müzakirə etdik ki, dünən Sloveniya-Azərbaycan qaz əməkdaşlığı istiqamətində mühüm hadisə baş verdi. Ümid edirik ki, biz bir neçə aya Sloveniya bazarına daxil ola biləcəyik. İndi Avropa interkonnektor layihələri icra olunduqca Azərbaycan qazının daha çox Avropa ölkəsinə ixrac edilməsi üçün əlavə imkanlar olacaq.

Avropa Komissiyası Azərbaycanı enerji üzrə etibarlı tərəfdaş və ümum-Avropa qaz təchizatçısı adlandırmışdır. Bu, çox böyük məsuliyyətdir və əlbəttə ki, biz yalnız Avropaya 2027-ci ilə qədər ildə 20 milyard kubmetr qazla təchiz etmək üzrə öz öhdəliyimizi yerinə yetirmək üçün əlimizdən gələni etməyə çalışırıq. Bu, bizim hədəfimizdir. Bizim resurslarımız və infrastrukturumuz var. Yeni tərəfdaşlarla, əsasən Sloveniya və Slovakiya ilə danışıqlar prosesini sürətləndirməliyik, həmçinin mövcud bazarlara qaz təchizatımızın artırılması üzərində çalışmalıyıq. Çünki bizim İtaliyaya təchizatımız 9 milyard kubmetrdirsə, İtaliyaya bizdən 20 milyard kubmetr qaz lazımdır. Bu, sadəcə, qazımıza olan tələbatın bir nümunəsidir. Digər bir məqam isə qazıntı yanacağı və onun müəyyən demonizasiyası ilə bağlıdır. Mən bu məsələ ilə bağlı şərhlərimi daha sonra bildirərəm.

Bizim enerji layihələrinə gəlincə, Azərbaycan etibarlı təchizatçı olub. Demək olar ki, 20 il ərzində biz tarixdə ilk dəfə olaraq Xəzər dənizini Aralıq dənizi ilə birləşdirən kəmər təşəbbüsü ilə çıxış etdik və qonşularımızla birlikdə onu istismara verdik. İndi biz Aralıq dənizində Türkiyənin Ceyhan limanından neftimizi müxtəlif təyinat nöqtələrinə, o cümlədən Azərbaycanın xam neftindən əhəmiyyətli dərəcədə asılı olan çox həssas nöqtələrə nəql edirik. Bəzi ölkələrdə Azərbaycan xam neftinin istehlakı onların tələbatının 50 və ya daha çox faizini təşkil edir. Üç ildən artıqdır ki, biz mühüm qaz təchizatçısına çevrilmişik. Bizim qaz kəmərimiz - Cənub Qaz Dəhlizi 2020-ci il dekabrın 31-də istismara verilib. Sözsüz ki, müqavilələr bundan əvvəl imzalanmışdı və biz avropalı tərəfdaşlarımızı dərhal təchiz etməyə başladıq. Bundan əvvəl bizim tərəfdaşlarımız yalnız Gürcüstan və Türkiyə idi. Beləliklə, qismən Adriatik dənizinin dibi ilə uzanan 3500 kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi - Cənub Qaz Dəhlizi istismara verildikdən sonra biz dərhal Avropaya təchizata başladıq.

# Seçkidə şəxsiyyət vəsiqəsi olmadan səs verə biləcəyik? - Rəsmi açıqlama



***Azərbaycanda dövlət və özəl müəssisələrdə xidmətlərdən istifadə zamanı şəxsiyyət vəsiqəsinin fiziki daşıyıcısını təqdim etmək məcburi olmayacaq. Belə ki, vətəndaş "mygov" tətbiqinə daxil olaraq rəqəmsal şəxsiyyət vəsiqəsi məlumatlarını müxtəlif üsullarla qarşı tərəflə bölüşə biləcək. Vətəndaş eyni zamanda "mygov" tətbiqində şəxsiyyət vəsiqəsi məlumatlarını nə zaman, harada və hansı müəssisəyə təqdim etdiyi ilə bağlı tarixçəylə tanış ola biləcək.***

Qarşıdan parlament seçkiləri gəlir. Belə ki, sentyabr ayının 1-də Milli Məclisə növbədənkənar seçkilər keçirilir. Səsvermə zamanı fiziki şəxsiyyət vəsiqəsi olmadan səs vermək mümkün olacaqmı?

İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyindən (İRİA) bildirilib ki, yeni qəbul olunmuş qərara görə ölkə səviyyəsində bütün xidmətlərdə fiziki şəxsiyyət vəsiqəsi ilə yanaşı rəqəmsal şəxsiyyət vəsiqəsi də tətbiq oluna bilər: "Bu özəl qurumlarda və dövlət qurumlarında da həyata keçirilir. Yəni şəxsiyyət vəsiqəsi tələb olunan hər yerdə rəqəmsal şəxsiyyət vəsiqəsi də istifadə edilə bilər. Buna keçiriləcək parlament seçkiləri də daxildir. Vətəndaş fiziki daşıyıcı ilə bərabər şəxsiyyət vəsiqəsini "mygov" üzərindən də təqdim edə bilər".

# Bu küçədə hərəkət tam məhdudlaşdırılacaq



***19 iyul saat 00:00-dan 22 iyul saat 06:00-dək Bakı şəhəri, Nərimanov rayonu, Əhmədbəy Ağaoğlu küçəsində (Təbriz küçəsi ilə kəsişmədən Şah İsmayıl Xətai prospektinə qədər) aparılan təmir işləri ilə əlaqədar avtonəqliyyat vasitələrinin hərəkəti tam məhdudlaşdırılacaq.***

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən "Unikal"a bildirilib ki, sürücülərdən aparılan işlərə anlayışla yanaşmaları, qeyd olunan müddət ərzində hərəkət istiqamətlərinə uyğun alternativ yollardan istifadə etmələri xahiş olunur.

# Ağentlik qida zəhərlənmələri ilə bağlı məlumat yaydı

***Qida zəhərlənmələrinə daha çox isti havalarda, yaz-yay aylarında təsadüf edilir. Zəhərlənmələrə mikroorqanizmlər, onların toksinləri və ya kimyəvi maddələrlə çirklənmiş qida qəbulu səbəb ola bilər. Son illərin statistik təhlilinə əsasən, ölkəmizdə qida zəhərlənmələrinin 75 faizi məişət zəminində baş verir.***



"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi məlumat yayıb. Bildirilir ki, qida zəhərlənmələrindən qorunmaq üçün müəyyən tövsiyələrə əməl etmək lazımdır:

- Əllər yemək hazırlamazdan öncə, balıq, ət və quş əti kimi çiy qidalarla təmasdan sonra yaxşı yuyulmalı;
- Mətbəx dəzgahı təmiz saxlanmalı, xüsusilə çiy ət, quş əti, balıq, çiy yumurta və tərəvəzlə təmasdan sonra yaxşı təmizlənməli;
- Əldə yara olarsa, yemək hazırlamazdan əvvəl sarğı ilə bağlanmalı;
- Çiy istehlak edilən (limon, pomidor, meyvələr və s.) və çiy istehlak edilməyən (ət, kartof və s.) qidalar üçün fərqli doğrama lövhələrindən və bıçaqlardan istifadə edilməli;
- Yeməkləri, xüsusilə ət yeməklərini bişirərkən tam bişdiyindən əmin olmalı;
- Çiy ət, toyuq, balıq, yumurta və digər çiy istehlak edilməyən qidaların bişmiş qidalarla təmasına yol verməməli;
- Dondurulmuş qidaları donunun açılması üçün otaq temperaturunda deyil, soyuducunun alt bölməsində saxlamalı;
- İstifadə müddəti keçməsə belə, xarab olma əlamətləri görünən qidaları istehlak etməməli;
- Yeməkləri, salatları, xüsusilə kremli şirniyyatları 2 saatdan artıq soyuducudan kənarda saxlamamalı;
- Botulizm riskini nəzərə alaraq, ev şəraitində turşu hazırlayarkən məhsulların çox yaxşı yuyulması və sterilizasiyasına xüsusi diqqət yetirməli;
- Tanımadığınız göbələyi yığmamalı və istehlak etməməli;
- Qidaları onların xüsusiyyətlərindən asılı olaraq düzgün rejimdə saxlamalı;
- Yeməyi bişirdikdən sonra yalnız bir dəfə qızdırmalı və ya dondurmalı.

# DSX və DİN-dən birgə əməliyyat

***Dövlət Sərhəd Xidməti və Daxili İşlər Nazirliyi birgə əməliyyat keçirib.***

Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzindən "Unikal"a verilən xəbərə görə, iyul ayının 16-da saat 02:40-da Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin xidməti ərazisində ümumi çəkisi 17 kiloqram narkotik vasitə marixuananı qaçaqmalçılıq yolu ilə İran İslam Respublikasından Azərbaycan Respublikasına keçirən Qazax rayon sakini 1984-cü il təvəllüdlü Rəsulov Kamil Səttar oğlu Dövlət Sərhəd Xidməti əməkdaşlarının sayıqlığı nəticəsində saxlanılıb.

Narkotik vasitələrin qaçaqmalçılığı və qanunsuz dövriyyəsi ilə məşğul olan mütəşəkkil cinayətkar qrupun digər üzvlərinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilməsi istiqamətində Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Daxili İşlər Nazirliyinin birgə həyata keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində Qaradağ rayon sakinləri 1982-ci il təvəllüdlü İsgəndərov Elçin Əliağa oğlu, 1985-ci il təvəllüdlü İsgəndərov Gülağa Əliağa oğlu və 1989-cu il təvəllüdlü Sariyev Taleh Babakərim oğlu Bakı şəhəri ərazisində saxlanılıb. Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

24_27 IYUl-QARA.qxd 7/18/2024 11:47 PM Page 7





## Prezidentin sabiq köməkçisi akademikin dairəsindən namizəd oldu

***Nazirlər Kabineti Aparatının İqtisadiyyat şöbəsinin müdiri Azər Əmiraslanov 108 saylı Ağstafa seçki dairəsindən deputatlığa namizədliyini irəli sürüb.***

"Unikal"ın məlumatına görə, sözügedən dairədən Milli Məclisin VI çağırış deputatı akademik Nizami Cəfərov idi.

Ötən gün Yeni Azərbaycan Partiyasının deputatlığa namizədləri sırasında onun adı qeyd olunmamışdı.

Xatırladaq ki, deputatlığa namizədliyini irəli sürən Azər Əmiraslanov daha əvvəl Prezidentin aqrar siyasət məsələləri üzrə köməkçisi olub.

*Seymur Əli*

## Azərbaycan ŞƏT-də müşahidəçi olmaq üçün müraciət edib




***Ermənistan, Azərbaycan, Banqladeş, Kamboca və Şri-Lanka müşahidəçi ölkə statusu almaq Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) müraciət edib.***

"Unikal" xəbər verir ki, bu barədə İran ŞƏT Katibliyindəki milli koordinator Mehrdad Kiayeyi "İzvestiya"ya bildirib.

"Bir neçə ölkə, o cümlədən Kamboca, Şri-Lanka, Ermənistan, Banqladeş, Azərbaycan və başqaları qoşulmaq üçün müraciət edib. Bu ölkələr statuslarını dialoq tərəfdaşından müşahidəçi statusuna dəyişmək istəyirlər. Biz, prinsipcə, bu məsələni nəzərdən keçirməyə hazırıq və müvafiq ərizəçilər və təşkilata üzv dövlətlərlə razılaşaraq, müəyyən nəticəyə gəlmək istəyirik", - Kiayeyi bildirib.

Onun sözlərinə görə, əvvəlcə həmin ölkələr müşahidəçi olmalıdırlar və yalnız bundan sonra tam üzv ola bilərlər.

Şanxay Əməkdaşlıq Təşkilatı 2001-ci il iyunun 15-də təsis edilib. Əvvəlcə altı ölkə - Rusiya, Qazaxıstan, Qırğızıstan, Çin, Tacikistan və Özbəkistandan ibarət olub. 2017-ci ildə Hindistan və Pakistan, 2023-cü ildə isə İran təşkilata qoşulub. Belarusun təşkilata qoşulması prosesi artıq yekunlaşıb.

## Emin Əmrullayev İsveçin səfiri ilə görüşdü

***İyulun 18-də elm və təhsil naziri Emin Əmrullayev İsveçrə Konfederasiyasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Tomas Steyli ilə görüşüb.***

Bu barədə "Unikal" Elm və Təhsil Nazirliyindən məlumat verilib.

Bildirilib ki, görüş zamanı iki ölkə arasında elm və təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti, perspektivləri müzakirə edilib.

# Siyasi partiyalar parlament seçkilərinə hansı dairədən kimlərlə gedir...

***Sentyabr ayının 1-də Azərbaycanda növbədənkənar parlament seçkiləri keçiriləcək. Qeydiyyatda olan 26 siyasi partiyanın əksəriyyəti seçkilərdə ştirak etmək barədə qərar qəbul edib.***

Bəzi partiya liderləri seçkidə iştirak etməsələr də, təşkilatın digər üzvləri namizəd kimi irəli sürülüb.

Hakim Yeni Azərbaycan Partiyası (YAP) bu gün 125 seçki dairəsi üzrə namizədini açıqlayıb. Partiyanın rəhbər strukturunda təmsil olunan Əli Əhmədov 25 saylı Nizami ikinci seçki dairəsindən namizəd olacaq.

VI çağırış parlamentdə 3 deputatla təmsil olunan Vətəndaş Həmrəyliyi Partiyasının (VHP) sədri Sabir Rüstəmxanlı bu seçkidə namizədliyini irəli sürməyəcək. Onun seçildiyi dairədən həyat yoldaşı Tənzilə Rüstəmxanlının namizədliyi irəli sürülüb.




"Ana Vətən" Partiyasının (AVP) sədri Fəzail Ağamalı da seçkilərdə namizəd olmayacaq. Onun əvəzinə həmin dairədən qızı Günay Ağamalı namizədliyini irəli sürəcək.

Müsavat Partiyasının sədri İsa Qəmbər də seçkidə iştirak etməyəcəyini bəyan edib. "Mən bu dəfə namizədliyimi irəli sürməyəcəyəm, Müsavat Partiyasının seçkilərdə iştirakına ümumi rəhbərlik edəcəyəm və namizədlərimizə dəstək verəcəm", - o deyib.

Ağ Partiyasının (AğP) sədri Tural Abbaslı isə 21 saylı Nəsimi-Binəqədi seçki dairəsindən namizədliyini irəli sürüb. Onun bu dairədə əsas rəqibi hakim partiyanın deputatı Məlahət İbrahimqızı olacaq.

Azərbaycan Ümid Partiyasının (ÜMİD) sədri İqbal Ağazadə də seçkidə iştirak etməyən liderlər arasındadır. O qeyd edib ki, rəhbərlik etdiyi partiyanın İdarə Heyəti namizədlərin siyahısını hazırlayıb müvafiq qaydada təqdim etsə də, onun bu dəfə keçiriləcək seçkilərdə iştirak etməsinə ehtiyac görməyib.

Azərbaycan Demokratik Maarifçilik Partiyasının (ADMP) sədri Elşən Musayev 116 saylı Qəbələ seçki dairəsindən namizəd olacaq. Bu barədə o, Modern.az-a açıqlamasında məlumat verib.

Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) seçkilərdə iştirak etməmək barədə qərar qəbul edib.

Azərbaycan Xalq Partiyasının (AXP) sədri Pənah Hüseyn 68 saylı Sabirabad-Şirvan seçki dairəsindən namizəd olacaq. Qeyd edək ki, YAP bu dairədən Kamal Cəfərovun namizədliyini irəli sürüb.

Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) sədri Arzuxan Əlizadə 27 saylı Sabunçu II seçki dairəsindən namizədliyimi irəli sürüb. "Partiyadan 12 namizəd dairələrə müraciət edib. Onlardan imza vərəqələri alanlar var. İki nəfər isə öz təşəbbüsü ilə namizədliyini irəli sürüb. Faktiki olaraq 14 namizədimiz var".

Azərbaycan Demokrat Partiyasının (ADP) sədri Sərdar Cəlaloğlu 3 saylı Şahbuz-Babək-Kəngərli seçki dairəsindən namizədliyini irəli sürüb: "Lazımi sənədləri təqdim etmişəm. İmza vərəqələrini gözləyirik".

Müasir Musavat Partiyasının (MMP) sədri Hafiz Hacıyev isə növbədənkənar parlament seçkilərində iştirak etmək niyyətində olmadığını bildirib: "Seçkiyə hazırlıq çərçivəsində partiyadan 11 nəfərin namizədliyi irəli sürülüb. Onlardan bir neçəsinin sənədləri hazırlanaraq, müvafiq qaydada dairə seçki komissiyalarına təqdim olunub. Mən özüm isə seçkidə iştirak etmək niyyətində deyiləm".

Böyük Quruluş Partiyasının (BQP)sədri Fazil Musatafa artıq sənədlərini müvafiq seçki komissiyasına təqdi edib. O, 26 saylı Birinci Sabunçu seçki dairəsindən namizədliyini irəli sürəcəyini bəyan edib: "İmza vərəqlərini digər zəruri sənədlərlə birgə dairə seçki komissiyasına təhvil verdim. Məmləkətimizə, dövlətimizə, partiyamıza və vətəndaşlarımıza xidmətin yeni mərhələsinə qədəm qoyuruq".

Demokratik İslahatlar Partiyasının (DİP) sədri Asim Mollazadə namizədliyini 22 saylı Nəsimi-Yasamal Seçki Dairəsindən irəli sürüb.

Ədalət, Hüquq, Demokratiya Partiyasının (ƏHD) sədri Qüdrət Həsənquliyevin namizədliyi 36 saylı Xətai-Suraxanı Seçki Dairəsindən irəli sürüb.

Böyük Azərbaycan Partiyası (BAP) da seçkilərdə iştirak etmək barədə qərar qəbul edib. Sonuncu prezident seçkilərində namizəd olan partiya sədri Elşad Musayev 10 saylı Binəqədi üçüncü seçki dairəsindən namizədliyini irəli sürəcəyini bildirib.

Klassik Xalq Cəbhəsi Partiyasının (KXCP) lideri Mirhəmud Mirəlioğlu isə saytımıza açıqlamasında 43 saylı Sumqayıt İkinci seçki dairəsindən namizədliyimi irəli sürdüyünü söyləyib.

Milli Dirçəliş Hərəkatı Partiyasının (MDHP) sədri Fərəc Quliyev seçkidə iştirak etmək niyyətindədir. "Növbədənkənar parlament seçkilərində həm mən, həm də partiyamız fəal iştirak etməyi planlaşdırır. Hələlik siyahı üzrə 11 nəfərin namizədliyi müəyyən olunub. Özüm də seçkilərə qatılmaqla bağlı qərar vermişəm", - o, mətbuata açıqlamasında bildirib.

Milli Cəbhə Partiyasının (MCP) sədri Razi Nurullayev isə yenidən İmişli seçki dairəsindən namizədliyini irəli sürəcəyini bildirib.

Respublikaçı Alternativ (REAL) Partiyası hələlik 13 namizədlə iştirak edəcəyini bəyan edib. Partiyanın sədri İlqar Məmmədov 22 saylı Nəsimi-Yasamal seçki dairəsindən namizədliyini irəli sürüb.

Haqq Ədalət Partiyası (HƏP) seçkilərdə 9 namizədlə iştirak edəcək. Partiyanın sədri, sabiq səhiyyə naziri Əli İnsanov namizəd olmayacaq.

Azad Vətən Partiyasının (AZAD VƏTƏN) sədri Akif Nağı isə namizədliyini 124 saylı Şuşa-Ağdam-Xocavənd seçki dairəsindən irəli sürüb.

Ədalət Partiyası seçkilərdə iştirak barədə qərar qəbul etsə də, partiyanın sədri İlyas İsmayılov seçkilərdə iştirak etməyəcək. Partiya hələlik 17 nəfərin namizədliyini irəli sürüb.

Gələcək Azərbaycan Partiyası (GAP), Yeni Zaman Partiyası (YZP) seçkilərdə iştirak etməklə bağlı qərar veriblər. Partiya sədrləri GAP sədri Ağasif Şakiroğlu və YZP sədri Musa Ağayevin hələlik hansı dairədən namizəd olacağı məlum deyil.

Vəhdət Partiyasının (VP) sədri Tahir Kərimli isə seçki ilə bağlı hələlik qərarını verməyib.

# Monopolistlərin ağlasığmaz qiymət soyğunçuluğunun yeni təfərrüatları

## Dünyada ucuzlaşma, bizdə isə bahalaşma... - İşin içində işbazlar var!

***Azərbaycanda bir çox ərzaqların qiymətində artım davam edir. Ən maraqlısı odur ki, dünyada qida məhsullarının ucuzlaşdığı bir vaxtda ölkəmizdə tamamilə əks tendensiya müşahidə olunur. Halbuki bir çoxları dünənədək daxildəki bahalaşmanı beynəlxalq bazarlardakı qiymət artımı ilə əsaslandırmağa çalışırdılar. Belədə sual yaranır: bəs onda dünyada ərzaq qiymətləri ucuzlaşanda niyə bizdə də ucuzlaşma baş vermir?***

Müəyyən statistik rəqəmlərlə həmin suala cavab tapmaq əslində çox asandır. Belədə bir daha aydın olacaq ki, Azərbaycanda az qala qarşısıalınmaz prosesə çevrilən bahalaşma prosesinin arxasında inhisarçı çevrələr dayanırlar. Gəlin nümunələrə müraciət edək.

Bu ilin ilk 4 ayı ərzində Azərbaycana xarici ölkələrdən 1 823,6 ton ətdən və əlavə ət məhsullarından hazırlanan kolbasalar və analoji məhsullar idxal edilib. Rəsmi məlumatlardan aydınlaşır ki, idxal olunan kolbasanın 1 kiloqramının orta gömrük dəyəri 2,9 dollar (4,9 manat) olub.

Qeyd edək ki, idxal olunan kolbasanın 82%-i və ya 1 450 tonu Rusiyadan gətirilib. Rusiyadan idxal olunan kolbasanın 1 kiloqramının orta gömrük dəyəri isə 2,4 dollar (4,1 manat) olub.

Müqayisə üçün bildirək ki, ötən ilin eyni dövründə Rusiyadan 1 592,7 ton kolbasa idxal olunub.

Xaricdən idxal olunan kolbasaların 1 kiloqramının orta satış qiyməti isə marketlərdə nə az, nə çox 21 manat təşkil edir. Yəni rəsmi statistikadan da göründüyü kimi, idxal kolbasalar marketlərdə gömrük dəyərindən (ölkəyə daxil olma qiyməti) 4 dəfədən çox baha satılır.

Yaxud: ötən il Azərbaycanda kənd təsərrüfatı müəssisələri tərəfindən 5 milyon 879 min 200 kiloqram, fərdi sahibkarlar tərəfindən isə 707 min 600 kiloqram mal-qara əti satılıb. Bir müddət öncə "Yeni Avaz" açıqlanan rəsmi məlumatlara istinadən xəbər verib ki, kənd təsərrüfatı müəssisələri tərəfindən satılan ətin 1 kiloqramının maya dəyəri 4,3 manat, fərdi sahibkarlar tərəfindən istehsal olunan ətin 1 kiloqramının maya dəyəri isə 6,4 manat olub.Qeyd edək ki, kənd təsərrüfatı müəssisələri mal-qara ətinin 1 kiloqramını 5,1 manata, fərdi sahibkarlar isə malqara ətinin 1 kiloqramını 7,7 manata satıblar.

Məlumat üçün bildirək ki, ötən il Azərbaycanda sümüklü mal ətinin pərakəndə satış qiyməti orta hesabla 14 manat, sümüksüz mal ətinin (tikə) pərakəndə satış qiyməti isə 16 manat olub.

Rəsmi rəqəmlərdən də göründüyü kimi, mal ətinin topdansatış qiyməti ilə pərakəndə satış qiyməti arasında fərq 3 dəfəyə yaxındır!

Başqa bir nümunə: 2024-cü ilin ilk 5 ayı ərzində Azərbaycana xarici ölkələrdən 10 min 394 ton kərə yağı idxal olunub.

Rəsmi məlumatlardan aydın görünür ki, idxal olunan kərə yağının 1 kiloqramının orta gömrük dəyəri 5,2 dollar (8,8 manat) olub.

Halbuki, bu ilin may ayında idxal olunan kərə yağlarının 1 kiloqramının orta qiyməti ölkənin pərakəndə ticarət şəbəkələrində təxminən 2 dəfə yüksək - 19,8 manat olub; cari ilin yanvar ayı ilə müqayisədə isə 1,3% və ya 26 qəpik bahalaşıb.

Şübhəsiz ki, qiymət artımının obyektiv səbəbləri olmamış deyil; lakin yuxarıdakı bir neçə ərzaq məhsulu ilə bağlı statistik göstəricilərdən ortaya bu çıxır ki, vətəndaşların hər keçən gün daha yüksək



səslə narazılıq etdikləri bahalaşmada subyektiv amillər də yetərincədir. Söhbət işbazların süni qiymət artımından, inhisarçıların heç cür bitmək bilməyən "qaz vurub qazan doldurmaq" sevdasından gedir.

Təzəlikcə qüvvəyə minən Rəqabət Məcəlləsinin bu anormal gedişatı dayandırmaq gücündə olub-olmadığını isə zaman göstərəcək. Odur ki, bir az da gözləmək lazımdır, hərçənd sadə vətəndaşın cibi boşaldıqca səbr kasası dolur. Monopolistlər indi yalnız süni bahalaşmanın yox, həm də cəmiyyətdə süni narazılığın baiskarlarına çevriliblər və onların qiymət soyğunçuluğuna nə qədər mümkündürsə o qədər tez nöqtə qoymağın vaxtıdır...

P.S. 2023-cü ildə dünyada ərzaq qiymətləri 13,7 faiz, dekabr ayında isə illik ifadədə 10,1 faiz ucuzlaşıb. Bu haqda BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) icmalında bildirilib. Dekabrda taxılın qiymət indeksi noyabr ayı ilə müqayisədə 16,6 faiz yüksək olsa da, əvvəlki illə müqayisədə aşağı düşüb. Lakin 2024-cü ilin yanvarında Azərbaycanda unun bahalaşması müşahidə olunmuşdu.

Yaxud, ötən ilin dekabrında bitki yağı 1,4 faiz (illik ifadədə 32,7 faiz), ət isə 1 faiz (illik ifadədə 1,8 faiz) ucuzlaşıb. İlin sonunda şəkərin qiyməti 16,6 faiz azalsa da, illik ifadədə artım 14,9 faiz olub. Eyni zamanda süd məhsullarının qiymətində 1,6 faizlik artım, illik ifadədə isə 16,1 faizlik azalma baş verib. Bu dönəmdə isə Azərbaycan bazarlarında bir sıra məhsulların bahalaşması müşahidə edilib.

Absurddur, təəccüblüdür, deyilmi? Lakin işin içində işbazlar olanda nə absurda yer qalır, nə də təəccüblənməyə səbəb...

***Sənan Mirzə***



## Gələn aydan internetin qiyməti və sürəti artır - Rəsmi

***Azərbaycanda aylıq internet paketlərinin qiymətləri artırılır.***

"Unikal" xəbər verir ki, bu barədə məlumatı internet provayderləri öz saytlarında yayıblar. Belə ki, "Aztelekom"un yaydığı məlumatda bildirilib ki, avqustun 15-dən etibarən ediləcək dəyişikliklər əhalinin yüksəksürətli internetə olan tələbatında artım tendensiyasını nəzərə alaraq, göstərilən xidmətin keyfiyyətinin yüksəldilməsi və dayanıqlı infrastrukturun təmin edilməsi məqsədilə həyata keçirilir:

"Şirkət GPON (Gigabit Passive Optical Network - Gigabit tutumlu Passiv Optik Şəbəkə) tarifləri üzrə təqdim olunan sürətləri 2.5 dəfə (40 Mbit/s internet sürətini 100 Mbit/s-yə, 60 Mbit/s internet sürətini 150 Mbit/s-yə və 100 Mbit/s sürətini isə 250 Mbit/s-yə qədər) artıracaq.

Yeni sürət tariflərində abunəçilər üçün minimal sürət 100 Mbit/s-dən başlayacaq və hər Mbit/s üçün ödəniş məbləği 0.45 AZN-dən 0.25 AZN-ə endiriləcək.

Belə ki, abunəçilərə 100 Mbit/s internet üçün 25 AZN, 150 Mbit/s internet üçün 30 AZN, 250 Mbit/s internet üçün 36 AZN qiymət təklif ediləcək.

Qeyd edilən qiymət dəyişiklikləri "Aztelekom" MMC-nin təqdim etdiyi xüsusi güzəşt tariflərini, o cümlədən şəhid ailələri və müharibə əlilləri üçün güzəştli "Təşəkkür" tarif paketlərini əhatə etməyəcək".

Oxşar məlumatı "Uninet" MMC ("CityNet") də yayıb. Bildirilib ki, tariflər 02.08.2024-cü il tarixindən etibarlıdır. Dəyişikliklər sosialyönümlü və güzəştli paketlərə şamil edilmir:

"Fiber optik internetdən yararlanan abunəçilərin internet sürəti 100 Mb/s-ə qədər artırılacaq. Fiziki şəxslər üçün internet paketinin qiyməti 25 AZN, "İnternet + TV" paketinin qiyməti 31 AZN, "İnternet + TV + Telefon" xidmətinin qiyməti isə 33 AZN təşkil edəcək. Hüquqi şəxslər üçün 100 Mb/s internet paketinin qiyməti 30AZN, 150 Mb/s internet paketinin dəyəri 36 AZN, 250 Mb/s internet paketi üçün qiymət 44 AZN olacaq".

## Bağça müəllimləri üçün sınaq imtahanı keçiriləcək



***İyulun 22-də məktəbəqədər təhsil müəssisələrinin pedaqoji heyəti üçün onlayn sınaq qiymətləndirilməsi olacaq.***

"Unikal" xəbər verir ki, bunu Məktəbəqədər təhsil şöbəsinin müdiri İlahə Rəsulova deyib.

Onun sözlərinə görə, iki sınaq imtahanının keçirilməsi planlaşdırılır. İ.Rəsulova vurğulayıb ki, bununla da məktəbəqədər təhsil müəssisələrinin pedaqoji heyəti diaqnostik qiymətləndirmədə mövzularla bağlı sualların hansı səpkidə olacağı ilə tanış olacaqlar: "Bu imtahanlar könüllüdür. Düşünürəm ki, pedaqoji heyətin bu imtahanlarda iştirakı onların xeyrinədir".

"Həmçinin respublika üzrə imtahan mərkəzlərində əyani imtahanlar da həyata keçiriləcək və bununla bağlı məlumat veriləcək", - deyə əlavə edib.

24_27 IYUl-QARA.qxd 7/18/2024 11:47 PM Page 9



# Azərbaycana 124 min saxta dollar gətirən qadın müəllimin cinayət işi



***Bakıda vətəndaşlara saxta dollar satmaqda təqsirləndirilən Səadət Məmmədovanın cinayət işinin bəzi detalları məlum olub.***

"Unikal"ın əldə etdiyi məlumata görə, istintaqla müəyyən olunub ki, Səadət Məmmədova saxta pul əldə etmə və satma barədə əvvəlcədən başqa şəxslərlə razılaşaraq cinayət əlaqəsinə girib.

S.Məmmədova qabaqcadan əlbir olan bir qrup şəxs halında birləşib, bu məqsədlə o, ölkə xaricində olan Murad Əbdürrəhimovdan saxta pulları əldə edərək Azərbaycan ərazisində onun dediyi şəxslərə satmalı imiş.

O, pulların saxta olmasından məlumatı olmayan tanışı Səlim Əliəsgərovla Türkiyəyə gedərək orada Murad Əbdürrəhimovdan ümumilikdə, 40.000 ABŞ dolları məbləğində saxta, ofset çap üsulu ilə hazırlanmış və eyni nominallı həqiqi pul əskinasları ilə eynilik təşkil etməyən, xarici valyutanı satış məqsədilə əldə edib və Azərbaycana gətirib.

S.Məmmədova yenidən pulların saxta olmasından məlumatı olmayan tanışı Şəfaqət Məmmədova ilə Türkiyəyə gedərək orada Murad Əbdürrəhimovdan ümumilikdə 30.000 ABŞ dolları məbləğində saxta, ofset çap üsulu ilə hazırlanmış və eyni nominallı həqiqi pul əskinasları ilə eynilik təşkil etməyən xarici valyutanı satış məqsədilə təkrarən əldə edərək Azərbaycana gətirib.

O, bundan başqa istintaqa məlum olmayan mənbədən ofset çap üsulu ilə hazırlanmış və eyni nominallı həqiqi pul əskinasları ile eynilik təşkil etməyən 54.300 saxta ABŞ dolları məbləğində olmaqla, xarici valyutanı satış məqsədilə təkrarən əldə edərək Azərbaycana gətirib.

S.Məmmədova bundan sonra cinayətkar fəaliyyətin davamı olaraq Murad Əbdürrəhimov ilə aralarında olan cinayətkar razılaşmaya və rol bölgüsünə əsasən, onun tapşırığı ilə əldə etdiyi eyni nominallı həqiqi pul əskinasları ilə eynilik təşkil etməyən, 124.300 saxta ABŞ dolları nominallı pul əskinaslarından Ələmdar Cahangirova 34.000 manat dəyərində saxta 20.000 ABŞ dolları, Elmar Ağayevə 23.120 manat dəyərində saxta 13.600 ABŞ dolları, Seymur Rəcəbova 37.740 manat dəyərində saxta 22.200 ABŞ dolları və Elçin Mehtiyevə 16.450 manat dəyərində xeyli miqdarda saxta 68.500 ABŞ dolları nominallı pul əskinaslarını təkrarən satıb.

İş üzrə 4 nəfər zərərçəkmiş şəxs qismində tanınıb.

Qeyd edək ki, Səadət Məmmədova qarşı Cinayət Məcəlləsinin 204.2-ci (saxta pul və ya qiymətli kağızlar hazırlama, əldə etmə və ya satma) maddəsi ilə ittiham irəli sürülüb.

Xatırladaq ki, Səadət Məmmədova həbs edilənə kimi müxtəlif təhsil müəssisələrində müəllim kimi çalışıb.

***Seymur Əli***

# 24 müharibə iştirakçısı polisə qəbul olundu



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyulun 17-də və 18-də Quba Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.***

"Unikal" xəbər verir ki, nazir əvvəlcə Quba rayonundakı ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib

Sonra Rayon Polis Şöbəsinin inzibati binasında Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən, Xızı şəhər və rayonlarından qəbula gələn 296 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

24 Vətən müharibəsi iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 180 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

# Vidadi İsayevin adı ətrafında "töhmət qalmaqalı"nın pərdəarxası

## Bərdənin icra başçısı parlament seçkisindən sonranı səksəkə içində gözləyir



***Bu günlərdə yerli mediada məlumat yayıldı ki, Bərdənin İcra Hakimiyyətinin başçısı Vidadi İsayevə töhmət verilib. İddia edilirdi ki, buna səbəb icra başçısının rayonda qanunsuz tikililərə göz yummasıdır.***

"Bildirilir ki, FHN ilə Arxitektura və Şəhərsalma Komitəsinin birgə yoxlaması zamanı Bərdədə çoxsaylı tikililər aşkarlanıb" - "Günün səsi" saytı belə yazırdı. Lakin eyni sayta açıqlamasında Vidadi İsayev bunu təkzib etdi, hərçənd yoxlama məsələsi düz çıxmışdı.

"Qanunsuz tikililərlə bağlı mübarizə Bərdədə ən yüksək səviyyədə aparılır. Zaman-zaman çoxsaylı qanunsuz tikintiyə cəhd halları olsa da, bunun qarşısı alınıb" deyən Vidadi İsayev özü də FHN, Dövlət Əmlak Xidməti ilə Arxitektura və Şəhərsalma Komitəsinin sözügedən yoxlama apardığını təsdiqləmişdi: "Lakin bu yoxlama təkcə Bərdədə deyil, bütün rayonlarda, şəhərlərdə aparılır. Bu məsələlər cənab Prezidentin diqqətindədir. Tikintiyə məsul qurum da icra hakimiyyəti deyil. Mövcud qanunvericiliyə görə, bir neçə qurumun razılığından sonra tikinti aparılmalıdır. Bərdədə də bunlara ciddi nəzarət olunur. Ancaq mənə töhmət verilməsi barədə məlumat doğru deyil".

Lakin yeni iddialar da var. Həmin iddialara görə, haqqında bəhs edilən yoxlama zamanı Bərdə rayonunda həqiqətən də çoxsaylı qanunsuz tikili müəyyənləşdirilib. Bununla bağlı icra başçısına da bildirilib. Eyni zamanda məlumatlar var ki, həmin qanunsuz tikililərə İsayev və ətrafının göz yumması səbəbsiz olmayıb. Belə ki, bu tikililərin bir çoxu rayonun məsul şəxslərinə, yaxud onlara yaxın adamlara məxsusdur, bəziləri isə yerli icra hakimiyyəti ilə bəlli anlaşmalar nəticəsində inşa olunub.

Məlum reallıqdan yoxlamanı aparan qurumlar da xəbərdardırlar, yəni töhmət məsələsi heç də boş yerə ortaya çıxmayıb. Üstəlik, bu məsələnin ictimailəşməsi də səbəbsiz deyil.Yenə iddialara görə, onsuz da fəaliyyətindən bərdəlilərin ciddi şəkildə narazı olduğu V.İsayev tezliklə postundan kənarlaşdırılacaq. Belə bir qərarın sentyabrın 1-də keçiriləcək parlament seçkilərindən sonra veriləcəyinə dair rayon ictimaiyyəti arasında söz-söhbət gəzir.Yerli sakinlər bu səbəbdən İsayevin seçki sonrasını səksəkə içində gözlədiyini deyirlər.

Xatırladaq ki, son zamanlar Azərbaycanda uzun müddətdir icra başçısı postunu tutan rayon rəhbərlərinin vəzifələrindən kənarlaşdırıldığı müşahidə olunmağa başlayıb. Belə ki, bir müddət öncə Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev, ardınca Qusar rayonuna 17 ildir rəhbərlik edən Şair Alxasov, daha sonra isə 6 il Beyləqan rayonunda icra başçısı olmuş Asif Ağayev həmin postdan kənarlaşdırıldı. Beləcə bütün diqqətlər qarşıdakı mərhələdə vəzifələri ilə vidalaşacaqları təxmin edilən digər "uzunömürlü" icra başçılarına yönəldi.

"Unikal" olaraq ayyarım öncə həmin sırada adı ön plana çıxanlardan, qarşıdakı aylarda vəzifəsindən uzaqlaşdırılması barədə sərəncam veriləcəyi təqdirdə buna kimsənin təəccüblənməyəcəyi "uzunömürlü" icra başçılarından birinin Vidadi İsayev olacağını qeyd etmişdik. Bildirmişdik ki, icra başçılığı karyerasına Tərtərdə başlayıb. 2005-2011-ci illərdə bu rayonun icra başçısı olan İsayev 2011-ci ildən Bərdəyə rəhbərlik edir. Vidadi müəllim haqqında ən çox şikayət edilən rayon rəhbərlərindən biridir.

Onu da vurğulamışdıq ki, adı ətrafında daim müxtəlif qalmaqalların yaşandığı Vidadi müəllimlə bağlı korrupsiya iddiaları isə az qala adi hala çevrilib. Məhz bu səbəbdən də 2019-cu ildən etibarən Azərbaycanda bir sıra rayon rəhbərlərinin həbsi ilə müşayiət olunan proses start götürəndə V.İsayevin də qandallanan icra başçılarının sırasına qoşula biləcəyini təxmin edənlərin də, buna inananların da sayı xeyli çox idi. Həmçinin 2020-ci ildə icra başçısının vəzifəsindən azad edildiyi barədə məlumat yayılmış, lakin həmin xəbər sonradan təsdiqlənməmişdi. Ümumilikdə 19 illik icra başçılığı karyerasına malik olan, fəaliyyəti yerli əhali tərəfindən birmənalı qiymətləndirilməyən, şəxsi biznesi ilə bağlı saysız-hesabsız iddialar dolaşan İsayev yaxın vaxtlarda postundan kənarlaşdırılarsa, bu, heç kim tərəfindən sürpriz qarşılanmayacaq. İndi isə Bərdə rayonunun icra başçısının adı ətrafında töhmət qalmaqalı onun yaxın vaxtlarda işsiz qalacağına dair iddia və ehtimalların həqiqət payını artırır. Digər tərəfdən məlum məsələdir ki, yerli icra hakimiyyətləri idarəetmə sisteminin ən çox tənqid edilən həlqəsidir. Elə bu səbəbdəndir ki, hətta onların ləğvi barədə təkliflər səsləndirilir. Hakimiyyət daxilində bu istiqamətdə müzakirələrin yekunlaşmaq üzrə olduğu və yaxın vaxtlarda son qərarın veriləcəyi barədə də söhbətlər dolaşır. Digər tərəfdən güman olunur ki, ən pis ehtimalla seçkilərin ardınca, payızdan etibarən vətəndaşların xüsusi ilə narazı olduğu, məmur özbaşınalıqlarından gileyləndiyi rayonların rəhbərliyində dəyişikliklər davam edəcək. Bu dalğada V.İsayevin də işsiz qalması, əvvəl də vurğuladığımız kimi, qətiyyən sürpriz sayılmayacaq.

***Sənan Mirzə***

# Vahid Ələkbərovun bank dərdi

## Ən çox şikayət olunan, bu ilin ilk yarısında kiçilən, aktivləri yüz milyonlarla manat azalan - Azərbaycanlı milyarderin qərarı nə olacaq?

***"Yelo Bank" ASC-nin 2024-cü ilin birinci yarısında aktivlərinin həcmi 1 milyard 124 milyon 651 min manat təşkil edib. Bankın maliyyə hesabatından aydın olur ki, bu, 2023-cü ilin sonu ilə müqayisədə 28,2 %, yaxud da 441 milyon 801 min manat azdır. "Yelo Bank" ASC-nin 2023-cü ilin sonunda aktivlərinin həcmi 1 milyard 566 milyon 452 min manat olub. Bankın aktivlərinin azalmasının səbəbi nağd pul vəsaitlərinin və ekvivalentlərinin, o cümlədən bloklaşdırılmış nağd vəsaitlərinin həcminin azalması ilə bağlıdır. Bu, 2024-cü ilin yarısında 4,2 dəfə azalaraq 160 milyon 237 min manat olub.***



Xatırladaq ki, 378 milyon manat nizamnamə kapitalı olan "Yelo Bank" ASC (VÖEN -9900014901) 1994-cü ildən fəaliyyət göstərir. Əvvəlcə "Ülpər" kommersiya bankı kimi fəaliyyətə başlayıb. Daha sonra 2002-ci ildə rebrending edərək "Nikoil Bank" adlandırılıb. 2019-cu ildən isə "Yelo Bank" adlanır.

"Yelo Bank" Rusiyada yaşayan Azərbaycan əsilli milyarder, "Lukoil" şirkətinin sahibi Vahid Ələkbərova məxsusdur.

Son vaxtlar bankın işlərinin yolunda getdiyini söyləmək olmaz. İlin ilk rübündə adıçəkilən ASC-nin maliyyə göstəricilərində də ciddi azalma baş vermişdi. Ötən ilin dekabr ayının 31-dən cari ilin aprelin 1-nə qədər bankın aktivləri 27.81 faiz və ya 435 milyon 640.98 min manat azalmışdı. Dekabrın 31-də aktivlərdə 1 milyard 566 milyon 452.88 min manatlıq vəsait qeydə alınmışdısa, aprelin 1-nə qədər bu həcm 1 milyard 130 milyon 811.90 min manat olmuşu.

Eyni zamanda "Yelo Bank" 2024-cü ilin ilk rübündə əmanət portfelinin 35%-ni itirmişdi.

Bankın nağd vəsaitlərinin həcmi 2023-cü ilin sonunda 687 milyon 293 min manat təşkil etmişdi.

Bundan başqa, Azərbaycan Mərkəzi Bankı 2024-cü ilin iyun ayı üzrə Bank müştərilərinin bank xidmətlərindən istifadəsi üzrə şikayət indeksini dərc etmişdi. 2024-cü ilin aprel ayında Azərbaycanda ən çox şikayət edilən bank 5,70 indeksi ilə "Bank VTB Azərbaycan" seçilmişdi. "Qırmızı zona"ya düşən banklar arasında 5-ci yerdə isə 2,48 indeksi ilə "Yelo Bank" da vardı. Bir sözlə, V.Ələkbərova aid olduğu deyilən ASC müştərilərin ən çox narazılıq etdiyi ilk 5 bankdan biri olmuşdu.

Halbuki 2023-cü ildə iqtisadiyyat saytları yazırdılar ki, "Yelo Bank" top menecmentin apardığı islahatlar sayəsində son bir neçə ildə bank sektorunun aparıcı oyunçularından birinə çevrilib və davamlı olaraq böyüməkdədir.

2022-ci ildə "Yelo Bank"ın nizamnamə kapitalındakı iştirak strukturunda dəyişiklik edilib. Belə ki, Yelo Bank-ın Müşahidə Şurasının sədri Marina Kulişova "Topaz Investments Limited" MMC-nin səhmlərini alaraq mövcud payını artırıb. Nəticədə Marina Kulişovanın səhm payı 98.91%-ə çatıb.

Azərbaycan Respublikasının vətəndaşı olan Marina Kulişova Bakı şəhərində anadan olub, Ali təhsilini Qərb Universitetində (indiki Qərbi Kaspi Universiteti) tamamlayıb. İngiltərənin Nottinqem Trent Universitetində bakalavr və magistr dərəcələrinə yiyələnib. 20 ildən artıq investisiyaların idarəedilməsi, strateji inkişaf və konsaltinq xidmətləri sahəsində geniş təcrübəyə malik olan Marina xanım Avropa Birliyi, Türkiyə və Azərbaycanda bir sıra beynəlxalq investisiya idarəetmə şirkətlərinin təsisçisi, eyni zamanda səhmdarıdır.

"Yelo Bank"da kiçik paya sahib olan digər səhmdarlar isə onun İdarə Heyətinin sədri Anar Həsənov və tanınmış tikinti maqnatı İsgəndər Xəlilovdur. İ.Xəlilov V.Ələkbərovla uzun illər bir yerdə çalışıb. Belə ki, 1988-ci ildən 1991-ci ilə qədər "LUKoyl" şirkəti prezidentinin məsləhətçisi olub, 1991-ci ildə "LUKoyl" - Azərbaycan" Neft Şirkətinin direktorlar şurasının sədri seçilib, 1996-cı ildən 2000-ci ilə qədər "LUKoyl"- Türkiyə" nümayəndəliyi İdarə Heyətinin rəhbəri kimi çalışıb. 2003-cü ilin fevralından "LUKoyl" Oversiz Holdinq LTD"-nin beynəlxalq fəaliyyət üzrə vitse-prezidenti işləyib və s.

2021-ci ildə "Yelo Bank" ASC-nin yeni baş ofisinin rəsmi açılış mərasimi baş tutdu. Tədbirdə Bankın bütün səhmdarları, Azərbaycan Respublikası Mərkəzi Bank rəhbərliyi, eləcə də digər rəsmi şəxslər iştirak etmişdi. Mərasimdəki çıxışında Vahid Ələkbərov həyata keçirilən yeni strategiyanın düzgünlüyünə əminliyini bildirmişdi. Sitat: ""Yelo Bank, missiyası həm kiçik və orta sahibkarlığa dəstək göstərməkdən, həm də Azərbaycan əhalisinə geniş çeşiddə maliyyə xidmətləri təqdim etməkdən ibarət olan müasir bir brenddir". Mərkəzi Bankın o vaxtkı rəhbəri Elman Rüstəmov isə yeni baş ofisin açılışı münasibətilə bank kollektivini təbrik etmiş və rebrendinq prosesindən sonra Yelo Bankın əldə etdiyi nəticələri yüksək qiymətləndirdiyini demişdi.

Lakin adıçəkilən ASC-nin son zamanlarkı nəticələri, müştərilərlə yaşadığı narazılıqlar düşündürücüdür. Belədə Ələkbərovun 3 il öncə haqqında məmnuniyyətlə bəhs etdiyi yeni strategiyada israr edib-etməyəcəyi maraq doğurur.

***Sənan Mirzə***

# Məhkəmə sabiq icra başçısının 600 minlik əmlakı ilə bağlı qərar verdi



***Ağstafanın həbsdə vəfat etmiş sabiq icra başçısı Nizaməddin Quliyevin müsadirə edilmiş əmlaklarını geri qaytarmaq uğrunda mübarizə başa çatıb.***

"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, bu gün Ali Məhkəmə məsələ ilə bağlı yekun qərar verib. N.Quliyevin hüquqi varisi qismində tanınmış qardaşı 600 min manatlıq əmlakın müsadirədən azad edilməsini istəyirdi.

Yüksək instansiya məhkəməsi isə hüquqi varisin istəyini əsaslı hesab etməyib. Məhkəmə belə qənaətə gəlib ki, prokurorun əsaslı protesti ilə birinci instansiya məhkəməsinin hökmü qüvvədə saxlanılıb. Bu səbəbdən kassasiya şikayəti rədd edilib.

Son qərar da elan edildiyinə görə, icra məmuru dövlət nəfinə alınan əmlakı hərrac təşkilatı vasitəsilə satışa çıxaracaq.

Qeyd edək ki, N. Quliyev 2019-cu ildə müavini Ramiz Tatarovla birgə Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən həbs edilmişdi. Mənimsəmə, rüşvət alma kimi cinayətlərdə təqsirli bilinən eks-icra başçısı Gəncə Ağır Cinayətlər Məhkəməsinin hökmü il 8 il 6 ay azadlıqdan məhrum edilib. Hökmə əsasən, üzərinə həbs qoyulmuş əmlaklar müsadirə edilib. 2 il sonra N.Quliyev həbsdə koronavirusdan ölüb. Ölümündən sonra Gəncə Apellyasiya Məhkəməsi əmlaklarını müsadirədən azad edib.

Sonradan prokurorun protesti əsasında Ali Məhkəmə qərarın əmlakların müsadirədən azad edilməsi hissəsini ləğv edilib. Gəncə Apellyasiya Məhkəməsi təkrar baxışda əvvəlki qərarını pozub, əmlakların yenidən müsadirəsinə qərar verib.

# Qadın xəbsxanaya psixotrop maddə keçirmək istədi



***Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin əməliyyat aparatının əməliyyat-axtarış tədbirləri nəticəsində 6 saylı cəzaçəkmə müəssisəsinə psixotrop maddə keçirilməsinin qarşısı alınıb.***

"Unikal" xəbər verir ki, bu barədə Penitensiar xidmətindən bildirilib.

Məhkum Elçin Əlisəfa oğlu Məmmədovla görüşə gəlmiş həyat yoldaşının üzərində gizlətdiyi bükülüdə 8,499 qram metamfetamin aşkar olunub.

Faktla bağlı araşdırma aparılır.

"Cəzaçəkmə müəssisələrində və ya istintaq təcridxanalarında saxlanılan şəxslərə qadağan olunmuş əşyaların verilməsi və ya ötürülməsinin cinayət məsuliyyətinə səbəb olduğu bir daha vətəndaşların diqqətinə çatdırılır", PX-dən bildirilib.

# Mağaza və ofisdən oğurluq edən keçmiş məhkumlar saxlanıldı

***Nəsimi rayonu ərazisində yerləşən mağazaların birindən oğurluq olub. Polisə müraciət edən şəxs oradan posterminal aparatı və 3 min manat dəyərində mobil telefonun oğurlandığını bildirib.***

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən "Unikal"a verilən məlumata görə, Nəsimi Rayon Polis İdarəsi 22-ci polis şöbəsi əməkdaşlarının keçirdikləri tədbirlər nəticəsində oğurluq əməlində şübhəli bilinən, əvvəllər məhkum olunmuş Ə.Salmanov müəyyən olunaraq saxlanılıb.

Sabunçu Rayon Polis İdarəsi 14-cü polis şöbəsi əməkdaşlarının keçirdikləri tədbirlər nəticəsində Maştağa qəsəbəsində mağazaların birindən 400 manat dəyərində oğurluq etməkdə şübhəli bilinən, əvvəllər də eyni əmələ görə məhkum olunmuş İ.Rəcəbov saxlanılıb.

Yasamal rayonunda ofislərin birindən mobil telefon oğurlamaqda şübhəli bilinən qadın, bir nəfərin isə mobil telefonunu quldurluq yolu ilə talamaqda şübhəli bilinən, əvvəllər narkotiklərlə əlaqəli cinayətə görə məhkum olunmuş E.İsmayılov 26-cı polis bölməsinin əməkdaşları tərəfindən saxlanılıblar.

Faktlarla bağlı araşdırmalar aparılır.

24_27 IYUl-QARA.qxd 7/18/2024 11:48 PM Page 11



## 33 yaşlı şəxsi öldürənin məhkəməsi başladı - Vəkil narazıdır



***Bakıda gənc oğlanı bıçaqlayaraq qətlə yetirməkdə təqsirləndirilən Elşən Nəbiyevin cinayət işi üzrə məhkəməsi başlayıb.***

"Unikal"ın məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Siyavuş Hacıyevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib. Təqsirləndirilən şəxsin vəkili vəsatət qaldıraraq müvəkkilinin həbs qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz edilməsini istəyib.

Zərərçəkmiş şəxsin vəkili isə vəsatət qaldıraraq cinayət işinin yenidən ibtidai istintaqa qaytarılmasını və təqsirləndirilən şəxs barəsində daha ağır maddələrin təyin edilməsini istəyib. Daha sonra çıxış edən prokuror Cövdət Mehrəliyev cinayət işinin məhkəmə baxışına verilməsini təklif edib.

Məhkəmə qısa müşavirədən sonra hər iki tərəfin vəsatətlərini təmin etməyib. Eyni zamanda işin baxışa verilməsi ilə bağlı qərar qəbul edib. Məhkəmənin ilk baxış iclası avqustun 2-nə təyin edilib.

Qeyd edək ki hadisə ötən ilin dekabrında paytaxtın Nərimanov rayonu ərazisində qeydə alınıb. Araşdırmalarla məlum olub ki, 1975-ci il təvəllüdlü Elşən Nəbiyev şəxsi münasibətlər zəminində 1990-cı il təvəllüdlü Etibar Əliyevi bıçaqlayaraq öldürülməsində əsaslı şübhələr müəyyən edilib. Cinayət əməlini törətməkdə şübhəli bilinən Elşən Nəbiyev Firudun oğlu polis əməkdaşları tərəfindən keçirilən tədbirlərlə saxlanılıb.

Ona qarşı Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə ittiham irəli sürülüb.

***Seymur Əli***

## Yeni monitorlar cərimə yazır? - DİN-dən açıqlama




***Avtomobil yollarında quraşdırılan monitorlar sürücüləri məlumatlandıran rəqəmsal sistemdir. Monitorlar cərimə yazmır, sürücünü məlumatlandırır.***

Bu barədə "Unikal"a DİN-in Mətbuat Xidmətindən bildirilib.

Qeyd olunub ki, yeni sistem cərimə və inzibati xətalarla bağlı qeydiyyat aparmır, yalnız sürücülərin təhlükəsizliyinə xidmət edir: "Bu monitorların quraşdırılmasında məqsəd hərəkət iştirakçılarının profilaktikası olmaqla, sürücülərin idarə etdikləri avtomobilin sürət göstəricisini əks etdirməsidir. Hər bir sürücü sürət həddinə əməl etməli, özünün və digər şəxslərin həyat və sağlamlığına etinasız yanaşmamalıdır. Yolda sürət təhlükədir".

## Samuxda 40453.4 ton taxıl yığılıb

***Rayonda taxıl biçini başa çatmışdır. Cari ildə 10766,7 hektar taxıl sahəsində biçin aparılıb. Həmin sahələrdən 40453,4 ton məhsul yığılmışdır. Məhsuldarlıq orta hesabla 37,6 sentner olub.***

Taxıl istehsalının 22452,4 tonu əhali təsərrüfatlarının, 18001 tonu isə kənd təsərrüfatı müəssisələrinin payına düşür.

Taxıl istehsalının 20846,0 tonu və ya 51,5 faizi buğda, 19607,4 tonu və ya 48,5 faizi arpa olmuşdur. Məhsuldarlıq buğdada hər hektardan 39,1 sentner, arpada isə hər hektardan 36,1 sentner təşkil edib.

***Samux Rayon Statistika İdarəsi***

# Anar Məmmədovun ətrafında müəmma

## İş adamının milyonlarla dollarlıq biznesinin təfərrüatları niyə qəfildən ortaya çıxdı? - İlginc iddialar!

***Ötən həftə keçmiş nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədov yenidən medianın gündəminə gəldi. Öncə beynəlxalq mətbuatda yayılan məlumatlar sonradan yerli KİV-də də geniş işıqlandırıldı. Söhbət onun Böyük Britaniyada sahib olduğu milyonlarla dollar dəyərində biznesinin təfərrüatlarından gedir.***

Həmin təfərrüatlardan belə aydın olurdu ki, 43 yaşlı Anar Məmmədov Amerika qızartma toyuq zənciri KFC-nin İngiltərədə françayzinqinə milyonlarla dollar xərcləyib.

KFC şəbəkəsinə yatırımları A.Məmmədovun Britaniyadakı biznes və daşınmaz əmlak portfoliosunun - əmlak çantasının bir hissəsidir.

"Transparency International UK" təşkilatının Britaniya torpaq reystrindən əldə etdiyi qeydlərə görə, bu portfolioya Londonun ən bahalı küçələrində toplam dəyəri 30 milyon dolları aşan daşınmaz əmlak da daxildir. O, bu daşınmaz əmlakın çox hissəsini atasının nazir olduğu vaxtda əldə edib.



Azərbaycan mediasında Məmmədovun Britaniyada KFC restoranlarını satın alması barədə 2022-ci ilin sonlarında ilk dəfə məlumat yayılanda onun atası, keçmiş nəqliyyat naziri Ziya Məmmədov oğlunun Britaniyada bir dənə də restoranının olmadığını söyləmişdi: "O xəbəri kim yazıbsa, gedib o restoranı tapsın. Onda mən o restoranı həmin adama verəcəyəm. 30 il olar, cəfəngiyyat yazırlarg Anarın Britaniyada restoranı yoxdur".

Ancaq son məlumatlar A.Məmmədovun hazırda İngiltərənin şimal-qərbində azı 20 restoranının olduğunu üzə çıxarıb. O, anonim ofşor şirkətindən yararlanaraq, azı, 10 il öncədən həmin sərmayəsini yatırmağa başlayıb.

A.Məmmədovun İngiltərənin Liverpul, Uiqan, Bolton və Preston kimi şəhərlərindəki daşınmaz əmlak portfoliosu, yaxud KFC restoranları ilə bağlı açıqlama xahişlərinə cavab verməyib. KFC və onun ABŞ-dakı "Yum! Brands" ana şirkətinə sorğular araşdırma dərc olunanadək cavabsız qalıb.

Telefonla əlaqə saxlanılan Z.Məmmədov isə Azərbaycanın nəqliyyat naziri olduğu dövrdə ona qarşı irəli sürülən ittihamlarla bağlı şərh verməkdən boyun qaçırıb. "Qoy kim nə istəyir, danışsın. Allah hər şeyi görür", - ata Məmmədov deyib.

Z.Məmmədov oğlunun Britaniyadakı KFC biznesinə dair daha öncəki müsahibəsi haqda suala cavab olaraq "Çox sağ olun, salamat qalın. Sağ olun!" deyərək dəstəyi asıb.

A.Məmmədovun İngiltərədəki KFC portfoliosuna indi, azı, 20 restoran daxildir. Bu restoranlar onun Britaniyadakı şirkətinin üç törəmə şirkətinə aiddir.

Britaniyanın Torpaq Reyestrinə aid qeydlər Məmmədovun "Amber Restaurants Limited", "BJR Foods Limited" və "Colonel Foods Limited" adlı bu üç törəmə şirkətdən burada, azı, 26 məkanı icarəyə götürmək üçün istifadə etdiyini göstərir.

Ən son maliyyə hesabatlarına görə, Məmmədovun "1st Rate Investments (UK) Limited" şirkətinin 2021 və 2022-ci illər üçün orta dövriyyəsi 50 milyon dollar civarında, səhmdarların vəsaitləri isə 2022-ci ildə 7 milyon dollar məbləğində olub.

Maliyyə hesabatları Məmmədovun Britaniya Vircin adalarında nəzarət etdiyi "1st Rate Investments Limited" adlı şirkətin Britaniyadakı KFC bizneslərinə 10 milyon dollardan çox faizsiz kredit göndərdiyini göstərir.

Maliyyə sənədlərindən görünür ki, Məmmədov sonradan öz KFC biznesindən milyonlarla dolları kredit və dividentlər şəklində yenidən özünün Vircin adalarındakı şirkətinə köçürüb.

Yerli KİV bir məqama da diqqət çəkir: bu məlumatlar niyə indi yayıldı? Axı son illər Anar az qalsın unudulmuşdu. Media sabiq nazir oğlu haqda heç nə yazmırdı. Bu səbəbdən də sabiq nazir oğlunun milyonlarla dollarlıq biznesinin tam təfərrüatlarının qəfil şəkildə ortaya çıxmasının səbəbi, yaxud səbəbləri təbii ki, maraq doğurur. Bəzi media orqanları, məsələn, musavat.com A.Məmmədovun qarşıdakı prezident seçkilərində ata-baba yurdu olan Ucardan deputat olmaq istədiyini yazıb. Lakin bu ağlabatan deyil. Əvvəla, Azərbaycanda kifayət qədər mənfi reputasiyaya malik oğul Məmmədov ölkəmizlə əlaqələrini demək olar ki, kəsib və bütün gələcəyini ölkədən kənarda görür.

Digər tərəfdən, sentyabrın 1-də keçiriləcək parlament seçkilərində onun əmisi, sabiq deputat Elton Məmmədov Ucardan namizəd olacağını artıq mediaya təsdiqləyib. Bu mənada A.Məmmədovun da namizədliyini irəli sürməsi real deyil.

Bəzi iddialara görə isə Anarın eynilə deputat Cavanşir Feyziyev kimi Londonda "qanunsuz əldə etdikləri gəlirdən" əmlak əldə etməkdə şübhəli bilinməsi və Böyük Britaniya məhkəməsi tərəfindən cəzalandırılması mümkündür. Axı tamamilə aydındır ki, o, ölkə xaricində, həmçinin İngiltərədə milyonlarla dollarlıq biznesə, əmlaklara məhz atası Ziya Məmmədovun nazir olduğu vaxtlardan etibarən sahib olmağa başlayıb. Ata Məmmədovun adı isə vəzifədə ikən çoxsaylı korrupsiya əməliyyatlarında hallanıb. Bütün bunları nəzərə aldıqda beynəlxalq mediada onun oğlu ilə bağlı son araşdırmanın təsadüf olmadığını və Londonda "yeni Feyziyev vaqiesi"nin yaşana biləcəyini təxmin etmək mümkündür.

***Toğrul Əliyev***

## 5.3.2. fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Milli mətbuatımız özünün inkişaf dövrünü yaşayır

## Rəşad Məcid: "Elə bir sahə yoxdur ki, media həmin sahə ilə bağlı ictimaiyyəti məlumatlandırmasın"

***Azərbaycan mətbuatı özünün yüksəliş mərhələsini yaşamaqdadır. Bu günlərdə Azərbaycan mətbuatı 149 yaşını qeyd edəcək. Azərbaycanda çap media ilə yanaşı internet media da populyarlıq qazanıb. Ölkə və dünya ictimaiyyətində baş vermiş hadisələrdən artıq internetdə bir kliklə xəbər tutmaq mümkündür.***

Baş verən hadisələrdən dərhal xəbər tutmağın, informasiyanın bu qədər əlçatan olması həm də media mənsubları üzərinə məsuliyyət qoyur. Həmin məsuliyyətlərdən ən əsası operativ yayılmış məlumatlarda dəqiqliyin qorunmasıdır. Sosial mediadan fərqli olaraq xəbər saytlarının yaydığı informasiyada dəqiqlik prinsipi qorunmalı, yayılmış xəbərin mənbəyi dəqiq göstərilməlidir. Son illər ölkəmizdə çoxlu sayda onlayn media resursları yaranaraq fəaliyyətə başlayıb. Azərbaycan mətbuatının ənənəvi çap mediadan internet mediaya keçidi bu gün də davam edir. Həmçinin ənənəvi çap media öz fəaliyyətini davam etdirir.

Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid "Unikal" qəzetinə açıqlamasında bildirib ki, bugünkü Azərbaycan mediası daim inkişafa can atan, özündə tarixi ənənələrə sadiqliyi və müasirliyi yaşadan dinamik, cəmiyyət həyatının müxtəlif sferalarına nüfuz etməyi bacaran, buna daim can atan mütəhərrik strukturdur.

O, bildirib ki, elə bir sahə yoxdur ki, media həmin sahə ilə bağlı ictimaiyyəti məlumatlandırmasın. "Ümumən, durumu belə qiymətləndirərdim. Konkretliyə gəldikdə, hazırda Azərbaycan mediası dünyanın Cənubi Qafqaz regionu ilə bağlı vacib informasiya mənbəyi rolunda çıxış edir. Bu da təbiidir. Çünki Azərbaycan regionun lider ölkəsidir, yaşadığımız coğrafiya ilə bağlı bütün vacib qərarlarda müstəsna rola malikdir. Bu günün Azərbaycanı o qədər güclü inkişaf edir ki, medianın da bu inkişafa adekvat reaksiya verməsi, tələblərə uyğun fəaliyyət göstərməsi mütləqdir". MŞ sədri bildirib ki, Azərbaycan mediasında adekvatlığın qorunması üçün isə peşəkarlığın daha da artırılmasına ehtiyac duyulur: "Biz hər zaman deyirik ki, Azərbaycan mediası dünya mediasına inteqrasiya etməli, onun tərkib hissəsi olmalıdır. Nəzərə alsaq ki, dünyanın da gözü



Cənubi Qafqazdadır, məsələ daha aktual səciyyə daşımaqdadır. Deməli, mediamız peşəkar standartları mənimsəməklə yanaşı, xarici dil biliklərinə də yiyələnməlidir. Burada söhbət yalnız xarici dildə xəbər yayıcılığından getmir. Eyni zamanda, dünyanın anladığı dildə düşünmək, təhlil etmək bacarığı da önəmlidir. Məsələn, azərbaycanlı jurnalist ingilis, fransız, ərəb və sair dili bilirsə, o, həmçinin həmin dillərdə danışan auditoriyanın tələblərini, nələri əsas götürdüyünü aydın şəkildə dərk etməlidir. Bu, peşəkarlığın sərhədlərini daha geniş götürmək zərurətini doğurur. Hesab edirəm ki, müasir media trendinə çevrilmək elə budur". Qeyd edək ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra isə milli mətbuatın inkişafı dövlətin prioritet məsələlərindən hesab olunub. Məhz bu məqsədlə ölkədə təkmil qanunvericilik bazası yaradılıb, mətbuatın inkişafı, eləcə də jurnalistlərin normal fəaliyyəti üçün çoxsaylı sənədlər qəbul edilib. Bunun nəticəsində ölkədə azad, müstəqil mətbuatın formalaşması təmin edilib. Ölkəmizdə müstəqil, güclü, fəaliyyətini günümüzün tələbləri səviyyəsində qurmağı bacaran, habelə dövlətçilik ənənələrinə bağlı və xalqımızın milli maraqlarını rəhbər tutan medianın inkişafı prioritet vəzifələrdən biri kimi daim diqqət mərkəzində saxlanılır. Medianın inkişaf dövrünün təməlini qoyan ulu öndər Heydər Əliyev hər zaman mətbuatın cəmiyyətə təsir gücünü yüksək qiymətləndirib, mətbuat və söz azadlığı, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirib. Müstəqillik dövründə Azərbaycan mətbuatı ilə bağlı ilk Fərman da məhz Heydər Əliyev tərəfindən imzalanıb. Ümummilli Liderin 1998-ci il 6 avqust tarixli Sərəncamı ilə Azərbaycanda senzura ləğv olundu. 2000-ci il martın 27-də imzalanan "Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi" haqqında Fərmanla ölkəmizdə demokratik mətbuatın 125 illiyi təntənəli şəkildə qeyd olundu. Ümumilikdə, Ulu Öndər mətbuatın problemlərinin həlli ilə bağlı ondan çox Sərəncam və Fərman imzalayıb. 1999-cu ildə "Kütləvi informasiya vasitələri haqqında" beynəlxalq tələblərə cavab verən qanun qəbul edilib. 2001-ci il dekabrın 18-də ölkənin əsas kütləvi informasiya vasitələri və jurnalist təşkilatlarının rəhbərləri ilə görüşən Ulu Öndər mətbuatın problemlərini müzakirə etdi. Həmin görüşdən sonra bəzi problemlər operativ həllini tapdı, qəzetlər əlavə dəyər və mənfəət vergisindən azad edildi, onlara kreditlər ayrıldı.

Ümummilli liderin mətbuata bu cür dost münasibəti jurnalistlər tərəfindən də yüksək dəyərləndirildi. Heydər Əliyev 2002-ci il martın 22-də "RUH" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsi tərəfindən "Jurnalistlərin dostu" mükafatına layiq görüldü. Bu gün müstəqil mətbuatın formalaşması və inkişafına xidmət edən siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə söz və mətbuat azadlığına, kütləvi informasiya vasitələrinə ən yüksək səviyyədə diqqət və qayğı göstərilir. Azərbaycanın artan iqtisadi imkanları mətbuatın inkişafı yolundakı çətinliklərin aradan qaldırılmasına, onun aktual problemlərinin həllinə şərait yaradır. Prezident İlham Əliyevin 2008-ci il 31 iyul tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nın təsdiq edilməsi, 2009-cu il aprelin 3-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondunun yaradılması azad medianı inkişaf etdirmək, mətbuatın maddi-texniki bazasını möhkəmləndirmək, jurnalistlərin sosial vəziyyətini yaxşılaşdırmaq məqsədilə atılan mühüm addımlardandır. Bundan əlavə, milli mətbuatımızın yubileylərinin ölkədə geniş qeyd olunması, KİV-ə birdəfəlik yardımların göstərilməsi, mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri, həmçinin milli mətbuatın inkişafındakı xidmətlərinə görə jurnalistlərin fəxri adlarla təltif edilməsi haqqında sərəncamlar da mətbuata və bu sahədə çalışanlara göstərilən qayğının tərkib hissəsidir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## Magistraturaya qəbul olunanların qeydiyyat müddəti uzadıldı

***Magistraturaya qəbul olmuş şəxslər 22 iyul saat 18:00?dək elektron qaydada qeydiyyatdan keçməlidirlər.***

Bu barədə "Unikal"a Dövlət İmtahan Mərkəzindən məlumat verilib.

Bunun üçün bakalavrlar göstərilən vaxtadək https://portal.edu.az/ platformasında qeydiyyatdan keçməli və təqdim edilən xidmətlər sırasında "Ali və orta ixtisas təhsili müəssisələrinə təhsilalan qeydiyyatı" xidmətini seçməlidirlər. Açılan səhifədə şəxsi və qəbul məlumatlarının təsdiq edilməsi, həmçinin tələb olunan sənədlərin əlavə edilməsi mümkündür.

Qeydiyyatdan keçməyən bakalavrlar ali təhsil müəssisələrinə qəbul olunanların siyahısından xaric ediləcəklər.

Xatırladaq ki, bakalavrların qeydiyyat prosesinə iyulun 9-dan etibarən başlanılıb.

## Satdığı qrildən qurd çıxan obyekt bağlandı



***Bir müddət əvvəl Bakıdakı təndirxanaların birində hazırlanan qrilin içindən qurd çıxması ilə bağlı sosial şəbəkələrdə görüntülər yayılmışdı.***

"Unikal" xəbər verir ki, məsələ ilə bağlı AQTA məlumat yayıb.

Bildirilib ki, yayılmış videogörüntülər əsasında Bakı şəhəri, Xətai rayonu, Zığ şosesi, 9 ünvanında fəaliyyət göstərən, fiziki şəxs İlhamə Zəkaray qızı Əsədovaya məxsus "Təndir N1" iaşə obyektində Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları tərəfindən keçirilmiş plandankənar yoxlama zamanı sanitar-gigiyenik və sanitar-texniki tələblərin pozulduğu müəyyən olunub.

"Baxış zamanı qida obyektində bişmiş yeməklərin çiy toyuq və ət məhsulları ilə birgə saxlandığı, dondurulmuş ət məhsullarının donunun açılması (defrostasiya) proseduru üçün sahənin təşkil edilmədiyi, müvafiq təmizlik işlərinin aparılmadığı, emal və anbar sahəsində mexaniki havalandırma sisteminin quraşdırılmadığı, işçilərin tibbi müayinə arayışlarının qanunvericiliyə uyğun olmadığı və digər nöqsanlar aşkarlanıb.

Həmçinin ümumi çəkisi 6.6 kq olan subməhsulun (ağ ciyər və qara ciyər) minimum keyfiyyət və təhlükəsizliyini təsdiq edən sənədlər təqdim olunmayıb", - qurum bəyan edib.

Aşkarlanmış nöqsanlarla əlaqədar qanunvericiliyə uyğun olaraq iaşə obyektinin fəaliyyəti məhdudlaşdırılıb və rəhbərliyi inzibati məsuliyyətə cəlb edilib.

24_27 IYUl-QARA.qxd 7/18/2024 11:48 PM Page 13





# Ölkəmizə gətirilən maşınlar bahalaşıb, sayı azalıb

***2024-cü ilin 6 ayı ərzində Azərbaycana 42335 ədəd avtomobil idxal edilib. Bunun 38 008 ədəd minik avtomobilidir.***

Modern.az-ın Dövlət Gömrük Komitəsinin (DGK) təqdim etdiyi statistik bülletenə əsasən apardığı araşdırmaya görə, ötən ilin eyni dövrü ilə müqayisədə ölkəyə gətirilən minik avtomobillərinin sayında azalma qeydə alınıb.

Belə ki, 2023-cü ilin birinci yarısında Azərbaycana 44 937 minik maşını gətirilib. Bu da 1 il ərzində ölkəyə gətirilən avtomobillərin sayının təxminən 7 min ədəd azaldığını göstərir.

Buna baxmayaraq, Azərbaycana idxal olunan hibrid və tam elekrik mühərrikli maşınların sayı artıb. Qeyd edək ki, bu ilin ilk 6 ayında ölkəyə 9 minə yaxın hibrid, 1505 ədəd elektrik mühərriklə işləyən maşın gətirilib.

Azərbaycana gətirilən maşınların qiyməti isə nəzərə çarpacaq dərəcədə artıb. İdxal olunan minik maşınlarının ümumi qiyməti 683 milyon dollara yaxın olub. 2023-cü ildə Azərbaycana gətirilən bir ədəd minik maşınını orta qiyməti 15121 manat olduğu halda, bu il bu qiymət 18 min manata yaxın olub. Beləliklə, idxal olunan avtomobillərin orta qiyməti 3 min manata yaxın artıb.

Elektrik maşınlarının orta qiymətində ciddi dəyişiklik olmayıb. 2023 və 2024-cü ilin birinci yarısında Azərbaycana gətirilən elektrik mühərrikli avtomobillərin bir ədədinin qiyməti 41 min dollara yaxın olub. Hibrid maşınlarında isə ciddi bahalaşma müşahidə edilib. Ötən il bir ədəd hibrid avtomobilin orta qiyməti 21.7 min dollar, bu il isə 38 faiz daha çox, 30 min dollara yaxın olub.

# Bölgələrdə fermerlərə səyyar xidmət göstərilir

***Aqrar Xidmətlər Agentliyi tərəfindən Saatlı rayonunun Qara Nuru kəndində fermerlərə səyyar xidmət göstərilir. Səyyar xidmət qrupu müasir kompüter avadanlıqları, internet təminatı qurğuları, sürətçıxaran cihazlar, qeydiyyat proseduru üçün lazım olan bütün avadanlıqlarla təchiz edilib.***

"Unikal" xəbər verir ki, tədbirdə Aqrar Xidmətlər Agentliyinin sədr müavini Anar Əzimov iştirakçılara agentlik tərəfindən göstərilən xidmətlər barədə məlumat verərək bildirib ki, səyyar xidmətin həyata keçirilməsində əsas məqsəd göstərilən xidmətləri bilavasitə yerlərdə təqdim etmək, fermerlərin qarşılaşdıqları problemlərin həllində operativliyin, çevikliyin və vətəndaş məmnunluğunun, ümumilikdə fermerlərin rahatlığının təmin olunmasına nail olmaqdır. Bu məqsədlə Aqrar Xidmətlər Agentliyi tərəfindən fermerlərə xidmətlərin yüksək səviyyədə göstərilməsi məqsədilə xidmət qrupu mikroavtobusla və tələb olunan lazımi vasitələrlə təmin olunub.

Səyyar xidmət qrupuna müraciət edən fermerlərin heyvanları qısa müddət ərzində baytarlıq müayinəsindən keçirilərək, profilaktiki tədbirlər aparılır, əkin sahələrində fitosanitar müşahidələr aparılaraq, bitki mühafizəsi tədbirləri həyata keçirilir, eləcə də əkin sahələrindən torpaq nümunələri götürülərək laboratoriya xidmətləri göstərilir. Həmçinin texnika sahiblərinin traktor və digər mexaniki nəqliyyat vasitələrini idarə etmək üçün etibarlılıq müddəti bitmiş və ya yararsız hala düşmüş sürücülük vəsiqələri dəyişdirilir, texnikalar ilkin və ya təkrar dövlət qeydiyyatına alınır və texniki baxışdan keçirilib.

Tədbir çərçivəsində fermerlərə İnformasiya məsləhət xidmətləri göstərilir və müxtəlif mövzuda bukletlər paylanılır. Səyyar xidmət qurupuna 60 nəfərdən artıq fermer müraciət edərək göstərilən xidmətlərdən bəhrələnib. Tədbir 2024-cü il 20 iyul ayınadək davam edəcək.

# Yay aylarında necə qidalanaq - Həkim məsləhəti

***Yay fəslində həzm xəstəliklərinə təsir göstərən faktorlar olur. Düzgün qida seçilməməsi, qidaların düzgün saxlanılması və təkrar istifadəsi, infeksion, mövsümü insan davranışları, qidalanma rejiminin dəyişməsi kimi amilləri buna misal göstərmək olar.***



"Unikal" xəbər verir ki, bu fikirləri Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, qastroenteroloq Emin Məmmədov açıqlayıb.

Onun sözlərinə görə, yay aylarında adətən həzm problemi, ishal, mədə ağrısı, öd daşının ağrı tutmaları, ürəkbulanma və qusma hallarından şikayətlənən pasientlərə daha tez-tez rast gəlinir.

"Bəzi insanlarda bütün bu əlamətlərin hamısı eyni vaxtda görünə bilər. İsti yay günlərində bədən daha çox maye, mineral itkisinə məruz qalır, nəticədə qəbizlik halları artır, iştahasızlıq yaranır. Yayda daha çox səyahət edildiyindən səyahətçi diarreyası dediyimiz ishal halları meydana çıxır. İsti hava xüsusən qida ilə yoluxan xəstəliktörədici mikroblar üçün ideal şəraitdir. Yay aylarında adətən hazırlanan qidaları, süddən hazırlanan kremli məhsulları, həmçinin yeməkləri soyuducuda belə olsa, saxlayıb təkrar istifadə etməmək tövsiyə olunur. Qida hazırlanarkən bir neçə saat ərzində bitirilməlidir", - deyə qastroenteroloq bildirib.

Onun sözlərinə görə, bu, qarpız və yemişə də aiddir: "Onları kəsməzdən əvvəl yaxşı yumaq lazımdır, çünki xəstəlik əsasən torpaqla kontakt nəticəsində meyvəyə düşən mikroblar tərəfindən törədilir. Qarpız və qovunu soyuducuda saxlayıb bir neçə gün yeyilməsi də məsləhət görülmür".

Mütəxəssis qeyd edib ki, dəniz mövsümündə günvurma və dəniz suyunun udulması nəticəsində mədə-bağırsaq pozuntuları, qusma və ishal halları yaranmasına səbəb duzlu suyun həzm sistemini qıcıqlandırması və infeksiyadır. Yay fəslində uzun müddətli mədə turşuluğunu salan dərmanlar qəbul edən pasientlər qidalanarkən daha diqqətli olmalıdırlar, çünki turşuluq bizi mikrobların daxil olmasından qoruyan baryer olduğundan zəhərlənmə və patogen mikroblara daha tez yoluxa bilərik.

Ekspert yay mövsümündə yetişən tərəvəz və meyvələrə üstünlük verməyi, bədənin hər kiloqramı üçün 20-30 millilitr olmaqla su istifadə etməyi, günün pik saatlarında günəş altında qalmamağı, hazır qidaların təzə-təzə dərhal yeyilməsini və saxlanma qaydalarına əməl olunmasını məsləhət görüb.

# Çağırışçıların tibbi müayinə prosesi müşahidə edilib

***Media nümayəndələrinin müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların yekun tibbi müayinəsi prosesi ilə tanışlığı məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Tibbi Qiymətləndirmə Mərkəzinə mediatur təşkil olunub.***



Jurnalistlər müasir tibbi avadanlıqlarla təchiz olunmuş mərkəzdə yaradılmış şəraitlə yaxından tanış olublar.

Bildirilib ki, mərkəzdə ixtisaslaşmış peşəkar həkim-mütəxəssislər tərəfindən 4 kateqoriyadan olan çağırışçıların (sıradankənar həqiqi hərbi xidmətə yararlılıq haqqında -"B" kateqoriyası, sağlamlıq vəziyyətinə görə həqiqi hərbi xidmətə müvəqqəti yararsız hesab edilməklə çağırışa möhlət verilməsi haqqında - "Ç" kateqoriyası, dinc dövrdə həqiqi hərbi xidmətə yararsızlıq, müharibə dövründə məhdud yararlılıq haqqında - "C" kateqoriyası, həm dinc dövrdə, həm də müharibə dövründə hərbi xidmətə yararsızlıq haqqında - "D" kateqoriyası) yekun tibbi müayinəsi aparılır.

Tibbi Qiymətləndirmə Komissiyası yekun tibbi müayinə nəticələri əsasında yekun qərarlardan birini qəbul edir. Yəni yararsızlıq səbəbi eyni, fərqli kateqoriyada üzrə təsdiqlənir və ya yararsızlıq səbəbi heç bir kateqoriya üzrə təsdiqini tapmır.

Qeyd olunub ki, yekun tibbi müayinə prosesində şəffaflığın, çevikliyin və obyektiv yanaşmanın təmin olunması məqsədilə rəqəmsal infrastruktur da qurulub.

Nazirliyin "Tibbi şəhadətləndirmə" altsistemi hazırlanaraq bu altsistemlə Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və digər aidiyyəti qurumların informasiya bazalarının inteqrasiyası, elektron məlumat mübadiləsi imkanları təmin edilib.

Müayinə ilə bağlı məlumatlar müvafiq qurumlardan həmin altsistem üzərindən qəbul edilərək toplanır və yekun müayinələrin nəticələri bu altsistemə daxil edilərək rəsmiləşdirilir. "Vətəndaş qəbulu" altsisteminin tənzimlənərək "Tibbi şəhadətləndirmə" altsisteminə avtomatik inteqrasiyası təmin edilib.

Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin İdarə Heyətinin sədr müavini Ramin Rzayev jurnalistlərə açıqlamasında deyib ki, bu işlərin görülməsi üçün ixtisaslaşmış şəxslər mərkəzə cəlb olunub:

"Həm şəffaflıq, həm də operativlik üçün bütün sistem elektronlaşdırılıb. Artıq neqativ halların aradan qaldırılması üçün operativ şəkildə fəaliyyətə başlamışıq və bu işlər davam edir. Ona görə də hər hansı şəxslə bağlı yanlış informasiyanın verilməsi mümkünsüzdür".

# COP29 könüllüləri İçərişəhərdə ekoloji aksiya təşkil edib

***COP29 Azərbaycan Əməliyyat Şirkəti ətraf mühitin mühafizəsində kollektiv iştirakçılıq və məsuliyyətə çağırış olaraq "Kiçik dostlarımız üçün təkrar istifadə" şüarı altında ekoloji aksiya təşkil edib.***

"Unikal" xəbər verir ki, tədbir "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunun tərəfdaşlığı ilə İçərişəhərdə baş tutub.

Aksiya çərçivəsində COP29 könüllüləri öncədən toplanan tullantı materiallarından təkrar istifadə etməklə funksional quş yuvalarının hazırlanması üçün bir araya gəliblər. Praktiki fəaliyyət ilə əhalinin marağına səbəb olan könüllülər aksiyaya qoşulan iştirakçılara müxtəlif növ tullantı materiallarından fərqli quş yuvalarının hazırlanması prosesini əyani nümayiş etdirib, tullantıların təkrar istifadəsi yolu ilə azaldılmasının faydası haqqında maraqlı faktlar bölüşüblər. Quş yuvaları daha sonra quş və kiçik heyvanların qida və su ehtiyaclarını təmin etməklə İçərişəhərdəki parkın ərazisində quraşdırılıb.




Yuvaların digər qisminin isə Qala Qoruğunda quraşdırılması nəzərdə tutulur.

COP29 könüllülərinin nəzəri bilik və praktiki fəaliyyətlərini birləşdirərək reallaşdırdıqları bu təşəbbüs mühüm iqlim məsələlərindən biri olan tullantıların idarə edilməsi və ətraf mühit, flora və faunanın mühafizəsi arasında olan əlaqənin vurğulanmasına, tullantıların məsuliyyətli idarəedilməsi kimi ekoloji dayanıqlı vərdişlərin gündəlik həyatda tətbiq edilməsinə ictimai diqqətin cəlb edilməsi, eləcə də kollektiv səylərin əvəzsiz rolunun bir daha vurğulanmasına xidmət edib.

# Həftəsonu "Kənddən Şəhərə" yarmarkası təşkil olunacaq

***Kənd Təsərrüfatı Nazirliyi tərəfindən 20-21 iyul tarixlərində paytaxtda "Kənddən Şəhərə" həftəsonu yarmarkası təşkil olunacaq.***

"Unikal" xəbər verir ki, yarmarkanın təşkilində əsas məqsəd yerli fermerlərin məhsullarının bazara çıxışını dəstəkləmək, onları alternativ satış nöqtələri ilə təmin etmək, eyni zamanda şəhər sakinlərinin təbii, yerli və sağlam kənd məhsullarına əlçatanlığını artırmaqdır.

Fermerlər yarmarkada iştirak üçün əvvəlcədən +994 50 400 88 99 çağrı mərkəzi ilə əlaqə saxlayaraq qeydiyyatdan keçməlidirlər. Burada 20 regiondan iştirak edəcək 40-a yaxın fermer 100-ə qədər çeşiddə kənd təsərrüfatı və qida məhsullarının satışını həyata keçirəcəklər. Yarmarka 2 gün müddətində 9:00-dan 19:00-dək Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 ("Gənclik" metro stansiyasının yanı) ünvanında təşkil olunacaq.

Yarmarkada satışa çıxarılacaq məhsulların keyfiyyətinə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi nəzarət edəcək. Belə ki, məhsulların keyfiyyəti ilə bağlı şübhəsi yaranan vətəndaşlar yarmarkada fəaliyyət göstərən Səyyar Qida Laboratoriyasına yaxınlaşaraq məhsuldan




analiz verə bilərlər.

Qeyd edək ki, yarmarkada iştirak edəcək fermerlər ödənişsiz şəkildə piştaxta, tərəzi və digər lazımi avadanlıqlarla təmin olunacaqlar.

# Vətən sevgisinin əbədiyyət yolu

***44 günlük haqq savaşımızda Vətən, torpaq naminə özünü fəda edən Rameş Gülverdi oğlu Zəkiyev ömrünün 23-cü ilinə qədəm qoyub. Astara elinin qeyrətli oğlu göz açdığı bu dünyada az yaşadı. Qaldı ki, gələcək nəsillər üçün örnək olacaq bir tarix yazıb getdi. O, indi cismən aramızda olmasa da, bütöv bir xalqın qəhrəmanlıq simvoluna dönərək milyonların ürəyindədir.***

Bu fikirlər İkinci Qarabağ şəhidi Rameş Zəkiyevin mövlud günü münasibətilə təşkil olunan mərasimdə deyildi. Mərasim iştirakçıları şəhidin doğma kəndində uyuduğu müqəddəs yeri ziyarət etdilər və ehtiram əlaməti olaraq məzarına təzə güllərdən çələng hördülər.

2001-ci ildə Astaranın Şahağac kəndində dünyaya göz açan Rameş Zəkiyev uşaqlıqdan idmanın boks növünə böyük maraq göstərib. Qatıldığı yarışlarda həmişə uğur qazanıb. 2016-cı ildə ölkəmizi Rusiyada təmsil edib.



Orta məktəbi bitirdikdən sonra 2019-cu ildə hərbi xidmətə yollanıb. Ağdam rayonunun Baharlı kəndində Vətənin keşiyində durub. İkinci Qarabağ müharibəsində minaatan kimi Rameş Ağdam istiqamətində gedən döyüşlərdə şücaət göstərib. Vətənə, torpağa məhəbbəti sayəsində neçə-neçə ağır sınaqlardan üzüağ çıxıb. 15 oktyabr 2020-ci ildə Ağdam rayonunun Hacıməmmədli kəndində minaatan mərmisinin düşməsi nəticəsində 2 döyüşçü yoldaşı ilə birgə şəhidlik zirvəsinə ucalıb. Onun cənazəsi 20 oktyabr 2020-ci ildə Şahağac kəndinə gətirilib, burada torpağa tapşırılıb. Ölümündən sonra "Vətən uğrunda", "Ağdamın azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" medallarına layiq görülüb .

***Zəfər Orucoğlu, AJB üzvü***

## Göygöl rayonunda 2024-cü ilin məhsulu üçün kənd təsərrüfatı bitkiləri əkin edilib



***2023-cü ilin payızında dən və yaşıl yem üçün 4286,5 hektar sahədə səpin aparılmışdır. 2024-cü ilin yazında 116,8 hektar sahədə dənli və dənli paxlalılar əkin edilib.***

2024-cü ilin məhsulu üçün 5875,3 hektar sahədən məhsul toplanacaq ki, bunun da 4347,8 hektarını dənli və dənli paxlalılar, 554,2 hektarını texniki bitkilər, 269,7 hektarını kartof, 277,4 hektarını tərəvəz, 4,5 hektarını bostan bitkisi, 421,7 hektarını isə yem bitkiləri təşkil edir.

Dənli və dənli paxlalılar əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 753,9 hektar və ya 14,8 faiz, kartof 52,3 hektar və ya 16,2 faiz, tərəvəz 159,6 hektar və ya 36,5 faiz azalmış, texniki bitkilər 218,6 hektar və ya 65,1 faiz, yem bitkilərinin əkin sahəsi 26,7 hektar və ya 6,8 faiz artmış, 4,5 hektar sahədə bostan bitkisi əkilib.

2024-cü ilin məhsulu üçün cəmi əkin sahəsinin 74,0 faizini dənli və dənli paxlalılar, 9,4 faizini kartof, tərəvəz, bostan bitkisi, 9,4 faizini texniki bitkilər, 7,2 faizini yem bitkiləri təşkil edib.

***Göygöl Rayon Statistika İdarəsi***

## Ağdaş rayonunda 2024-cü ilin məhsulu üçün əkinlər başa çatıb

***Rayonda keçmiş illərdə əkilmiş çoxillik bitkilərin əkin sahələri də daxil edilməklə 2024-cü ilin məhsulu üçün payızlıq və yazlıq bitkilərin ümumi əkin sahəsi 28926,2 hektar olmuşdur. Bu da, əvvəlki illə müqayisədə 452,1 hektar və yaxud 1,5 faiz azdır.***

Mövcud əkinlərin 16064,0 hektarını (55,5 faizini) payızlıq bitkilərin əkin sahələri, 5040,2 hektarını (17,4 faizini) yazlıq bitkilərin əkin sahələri, 7822,0 hektarını (27,1 faizini) isə keçmiş illərdə əkilmiş çoxillik bitkilərin əkin sahələri təşkil etmişdir.

2024-cü ilin məhsulu üçün əkilən sahələrinin 16939,0 hektarını (58,6 faizini) payızlıq və yazlıq dənlilər və dənli paxlalı bitkilər, 10109,8 hektarını (34,9 faizini) payızlıqlar daxil olmaqla yem bitkiləri, 1578,0 hektarını (5,5 faizini) kartof, tərəvəz və bostan bitkiləri, 299,4 hektarını (1,0 faizini) isə texniki bitkilər təşkil etmişdir.

**Əkin sahələrinin quruluşu**




***Ağdaş Rayon Statistika İdarəsi***

## Ağdaş rayonunda taxıl biçini başa çatıb

***Rayonda taxıl sahələrindən ümumilikdə 46 min 451,2 ton taxıl biçilmişdir. Bu da, əvvəlki illə müqayisədə 89,8 ton və yaxud 0,2 faiz çoxdur. Biçilmiş məhsulun 11 min 637,8 tonunu buğda, 34 min 813,4 tonunu arpa təşkil etmişdir.***

Hər hektarın orta məhsuldarlığı buğda sahəsində 0,1 sentner artaraq 29,5 sentner, arpa sahəsində isə 0,3 sentner artaraq 28,8 sentner təşkil etmişdir. Hazırda rayonda 2025-ci ilin məhsulu üçün taxıl əkininə hazırlıq gedir.

***Ağdaş Rayon Statistika İdarəsi***

24_27 IYUI-QARA.qxd 7/18/2024 11:48 PM Page 15



# Ermənistan tərəfi yenidən görüş təklif etdi



***Ermənistan tərəfi Böyük Britaniyada Avropa Siyasi Birliyinin Sammiti çərçivəsində Ermənistanın baş naziri ilə Azərbaycan Prezidenti arasında ikitərəfli görüşün keçirilməsini təklif edib.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistan Xarici İşlər Nazirliyi məlumat yayıb.

XİN-in məlumatına görə, Ermənistan tərəfinin təklifi hələ də qüvvədədir: "Erməni tərəfi danışıqların ən yüksək səviyyədə intensivləşdirilməsi və bir ay ərzində sülh sazişinin imzalanmasına nail olmaq təklifini təsdiqləyir".

# Yunanıstan köhnəlmiş F-16-ları Ukraynaya verəcək

***Yunanıstan 32 ədəd köhnə F-16 Block-30 qırıcısını Ukraynaya təhvil vermək niyyətindədir.***

"Unikal" xəbər verir ki, bu barədə xarici KİV məlumat yayıb. Qeyd olunub ki, Yunanıstan Hərbi Hava Qüvvələri 82 ədəd F-16 qırıcısını Block-70-ə təkmilləşdirməyi və Fransadan 24 ədəd dördüncü nəsil Rafale qırıcısı almağı planlaşdırır.

ABŞ Konqresinin komitəsi həmçinin Yunanıstana 40-a qədər beşinci nəsil F-35 çoxməqsədli döyüş təyyarəsi almağa icazə verib.

# "Avropa İttifaqı gərginliyin artması kursundadır" - Peskov



***Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayenin Aİ-ni müdafiə ittifaqına çevirmək niyyəti Avropada qarşıdurma əhval-ruhiyyəsindən xəbər verir.***

"Unikal" xəbər verir ki, bu barədə Kremlin sözçüsü Dmitri Peskov jurnalistlərə bildirib. Diplomatın sözlərinə görə, Avropa İttifaqı gərginliyin artması kursundadır: "Bu, bir daha Avropa dövlətlərinin militarizasiya, gərginliyin artması, qarşıdurma və xarici siyasətində qarşıdurma metodlarına əsaslanmaq əhval-ruhiyyəsini təsdiqləyir".

# Ermənipərəst ABŞ senatoru istefa verəcək

***ABŞ məhkəməsi tərəfindən korrupsiyada və digər ölkələrin maraqları üçün lobbiçilikdə təqsirli bilinən senator Robert Menendes istefa vermək niyyətindədir.***

"Unikal" xəbər verir ki, bu barədə Fox News telekanalı siyasətçiyə yaxın mənbələrə istinadən məlumat yayıb.

Qeyd olunur ki, istefa uzun illər orada yüksək vəzifələrdə çalışan Menendezin az qala 30 illik Konqresdəki karyerasının başa çatmasına gətirib çıxaracaq.

İyulun 16-da bildirildi ki, ABŞ münsiflər heyəti demokrat senator Robert Menendesi korrupsiya, Misir və Qətərin maraqları üçün xarici agent və lobbiçilik kimi 16 maddənin hamısında təqsirli bilib. Arvadı erməni olan senator günahını etiraf etmir.

Bundan əlavə, siyasətçi ədalət mühakiməsinə mane olmaqda, hədə-qorxu ilə tələb etməkdə və dələduzluqda təqsirli bilinib. Menendesi 20 ilə qədər həbs gözləyir.

# "Rusiya Avropa İttifaqında heç kimə təhlükə törətmir" - Kreml

***Rusiya Avropa İttifaqında heç kimə təhlükə törətmir.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov açıqlayıb.

Diplomatın sözlərinə görə, ölkə öz maraqlarını qoruyur: "Rusiya Federasiyası Avropa İttifaqında heç kimə təhlükə yaratmayıb və hazırda da heç bir təhlükə yaratmır. Ölkə Ukraynada Avropa İttifaqı ölkələrinin hər hansı dialoq imkanını istisna etdiyi və Rusiyanın narahatlığını nəzərə alaraq öz maraqlarını müdafiə edir".

# İran nüvə sazişini bərpa etmək istəyir

***Tehran İranın nüvə proqramı üzrə Birgə Hərtərəfli Fəaliyyət Planının (JCPOA) iştirakçısı olaraq qalır və onun reabilitasiyasına nail olmaq niyyətindədir.***



"Unikal" xəbər verir ki, bu barədə İranın xarici işlər naziri vəzifəsini icra edən Əli Baqeri Kani bildirib.

"2015-ci ildə imzalanmış müqaviləmiz var... ABŞ müqaviləni zədələyərək, müqavilədən çəkildi. Əvvəlki kimi biz iştirak edirik. İndiyədək ABŞ qayıda bilməyib, ona görə də bizim qarşıya qoyduğumuz məqsəd 2015-ci il sənədinin bərpasıdır. Biz yeni razılaşmaya can atmırıq", - deyə o, CNN telekanalına müsahibəsində deyib.

Diplomat nüvə silahının hazırlanması ilə bağlı suala cavab olaraq deyib ki, İranın ali dini lideri Ayətullah Əli Xameneinin nüvə silahını qadağan edən fətvası heç bir dəyişikliyə məruz qala bilməz: "Bu, İranın ali dini hakimiyyəti və eyni zamanda ən yüksək dövlət xadimi olan İran liderinin fətvasıdır. Ona görə də onun verdiyi əmr və fətvaların bütün səlahiyyətli orqanlar tərəfindən icrası məcburidir və heç kim onları poza bilməz və pozmayacaqdır".

Baqeri həmçinin qeyd edib ki, İran Nüvə Silahlarının Yayılmaması Müqaviləsindən (NPT) və Beynəlxalq Atom Enerjisi Agentliyi ilə İran İslam Respublikası arasında qorunma müqaviləsindən çıxmaq niyyətində deyil.

# Rusiyada imam-xətib FSB əməkdaşları tərəfindən saxlanıldı

***Rusiyanın FSB əməkdaşları Ulyanovsk vilayəti Müsəlmanlarının Mərkəzi Ruhani İdarəsi mərkəzləşdirilmiş dini təşkilatının imam-xətibini saxlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə xarici KİV məlumat yayıb.

Əməliyyat-axtarış tədbirləri zamanı məlum olub ki, həmin şəxs hələ 2016-cı ildə Rusiyada fəaliyyəti qadağan edilmiş beynəlxalq terror təşkilatının üzvlərinin nəzarətində olan bank kartına pul köçürüb. Belə ki, o, Suriyada cinayət fəaliyyətini maliyyələşdirib.

İmamın yaşadığı ünvanda aparılan axtarış zamanı şəxsi qeydləri olan dəftərlər, bank kartları və qadağan olunmuş dini ədəbiyyat götürülüb. Onun barəsində Rusiya Federasiyası Cinayət Məcəlləsinin 205.1-ci ("Terrorçuluğun maliyyələşdirilməsi formasında terror fəaliyyətinin təşviqi") maddəsi ilə cinayət işi başlanıb.




# Amerika ordusunun nümayəndəsi Ermənistan Müdafiə Nazirliyində işləyəcək

***İyulun 13-16-da ABŞ dövlət katibinin mülki təhlükəsizlik, demokratiya və insan haqları üzrə müavini Uzra Zeya Ermənistanda olub.***



"Unikal" xəbər verir ki, bu barədə erməni KİV məlumat yayıb. O, Ermənistan-Amerika əməkdaşlığı, Amerika vasitəçiliyi ilə Ermənistan-Azərbaycan danışıqları və Ermənistanda demokratik islahatlar barədə danışıb.

Zeya Amerika ordusunun nümayəndəsinin Ermənistan Müdafiə Nazirliyində işləməsi barədə məlumatı təsdiqləyib: "Xəbəri təsdiqləyirəm. Bu xoş hadisədir, təfərrüatları səfirimizdən və media komandamızdan yoxlaya bilərsiniz. Biz ABŞ və Ermənistan arasında müdafiə-mülki və təhlükəsizlik sahəsində əməkdaşlığın dərinləşməsini alqışlayırıq. Bu həm də Ermənistan-Amerika münasibətlərində strateji tərəfdaşlığın yeni mərhələsinə qədəm qoymasının tarixi faktına işarə edir".

# "İlon Maskdan bezmişəm" - Co Bayden

***ABŞ prezidenti Co Bayden "Tesla", "SpaceX" və "X" şirkətlərinin sahibi İlon Mask və onun zəngin dostlarının prezident seçkilərini "almağa çalışmasından" bezdiyini bildirib.***



"Unikal" xəbər verir ki, bu barədə o, Covid-19 testinin müsbət çıxmasının ardından özünün "X" hesabında açıqlama verib.

Covid-19 səbəbiylə xəstə olduğunu xatırladan Bayden, "İlon Mask və onun zəngin dostlarının bu seçkini almağa çalışmasından bezdim", - deyə qeyd edib.

O, bu məsələdə onunla həmfikir olanlardan onun kampaniyasına ianə etmələrini istəyib.

Qeyd edək ki, Mask iyulun 13-də "X" hesabında etdiyi paylaşımda Donald Trampı tam dəstəklədiyini bildirmişdi.

Eyni zamanda, ölkənin yerli mətbuatında yer alan xəbərə görə İlon Mask Trampın prezidentlik kampaniyasını dəstəkləyən "America PAC" adlı yeni siyasi fəaliyyət komitəsinə ayda təxminən 45 milyon dollar verməyi planlaşdırdığı iddia edilib.

# "Azərbaycanda oynamaq karyerama müsbət təsir edəcək" - Portuqaliyalı futbolçu

***"Menecerim Azərbaycandan təklif gəldiyini bildirdi. Futbolçu həyatı elədir ki, hər zaman yeni çağırışlara hazır olmalısan. Bu baxımdan təklifi dəyərləndirdim".***

"Unikal" xəbər verir ki, bu sözləri "Araz-Naxçıvan"ın yeni transferi Bernardu Diaş klubun rəsmi saytına açıqlamasında deyib.

Bir həftədir Naxçıvan təmsilçisinin düşərgəsində olan portuqaliyalı hücumameyilli yarımmüdafiəçi çox yaxşı, intizama riayət edən komandaya gəldiyini bildirib: "Hər kəs birbirinə mehriban davranır, kömək etməyə çalışır. Təbii ki, klubun da bir hədəfi var və buna nail olmaq üçün əlimizdən gələni edəcəyik. Yeni mövsümə hazırlığımız yüksək səviyyədə davam edir. Start uğurlu olmalıdır. Bunun üçün də maksimum çalışmalıyıq".




27 yaşlı vinger Azərbaycan və ölkə çempionatı barədə müəyyən məlumatlara sahib olduğunu, bu işdə ona keçmiş komanda yoldaşlarının kömək etdiyini söyləyib: "Əlbəttə, təklifə "hə" dedikdən sonra həm formasını geyinəcəyim klub, həm də liqa haqqında məlumat topladım. Bu işdə mənə ən çox vaxtı ilə bir komandada oynadığım, indi isə karyerasını ölkənizdə davam etdirən bir neçə futbolçu kömək etdi, doluğun məlumat verdi. Burada olmaq və oynamaq karyerama müsbət mənada təsir edəcək".

Türkiyənin Əruzum şəhərində davam edən təlim-məşq toplanışını da dəyərləndirən futbolçu Superliqa təmsilçisi "Alanyaspor"la 1:1 hesablı heç-heçə ilə başa çatan yoxlama oyununu da şərh edib: "Görüş yoxlama xarakteri daşısa da, biz meydanda sanki günlərlə keçdiyimiz məşqlərin hesabatını verməyə çalışdıq. İlk oyunumuz idi, çatışmazlıqların olması normaldır, amma müsbət məqamlar da var idi. Məncə, ilk addımımız pis alınmadı, ancaq vacib olan baş məşqçinin fikirlərini və istəklərini düzgün icra etməkdir. Tədricən buna nail olacağımızı vurğulaya bilərəm".

Qeyd edək ki, Bernardu Diaş "Araz-Naxçıvan"la 1 illik müqavilə imzalayıb.

# Ronaldonun oynadığı klub Braziliya millisinin üzvünü transfer etdi

***Məşhur futbolçu Kriştiano Ronaldonun da formasını geyindiyi "Əl-Nəsr" heyətinə yeni futbolçu qatıb.***

QOL.az xəbər verir ki, bu barədə klubun saytı məlumat yayıb. Səudiyyə Ərəbistanı təmilçisi Braziliya millisinin qapıçısı Bentonu "Atletiko Paranaense"dən transfer edib.

Transferin məbləğinin 18 milyon avro olduğu qeyd edilir. Futbolçu ilə 30 iyun 2028-ci ilə qədər müqavilə imzalanıb.

Qeyd edək ki, ötən mövsüm Bento 27 oyun keçirib, 16 qol buraxıb. O, həm də son Amerika Kubokunda Braziliya millisinin ehtiyat qapıçısı olub.



# İbrahimoviçin oğlu "Milan"la müqavilə imzaladı

***Isveç millisinin sabiq futbolçusu Zlatan İbrahimoviçin oğlu Maksimilian İbrahimoviç İtaliyanın "Milan" komandası ilə peşəkar müqavilə bağlayıb.***

"Unikal" xarici mətbuata istinadən xəbər verir ki, anlaşmaya əsasən, 18 yaşlı hücum-



çu yeni mövsümdə C Seriyasında mübarizə aparan "Milan Futuro" kollektivinin formasını geyinəcək.

Qeyd edək ki, ötən mövsüm "Milan"ın gənclər komandasında yer alan forvard 29 oyunda 3 məhsuldar ötürmə ilə yadda qalıb.

# "Sabah"ın cavab oyununa hakim təyinatları açıqlandı

***"Sabah"ın UEFA Konfrans Liqasının II təsnifat mərhələsində İsrailin "Makkabi" (Hayfa) klubuna qarşı keçirəcəyi cavab oyununun hakimləri açıqlanıb.***

"Unikal" UEFA-nın rəsmi saytına istinadən xəbər verir ki, matç Slovakiyadan olan hakimlər briqadasına tapşırılıb. Görüşün baş hakimi Peter Kraloviç olacaq. Ona yan xətt hakimləri Tomaş Straka və Matey Zemko kömək edəcəklər. Boris Marhefka isə dördüncü hakim funksiyasını yerinə yetirəcək.

Qeyd edək ki, avqustun 1-də keçiriləcək "Sabah"-"Makkabi" oyunu saat 20:00-da başlayacaq.

# II Liqada çıxış edəcək 14-cü komanda müəyyənləşdi

***AFFA və PFL II Liqada komanda sayının optimallaşdırılması məqsədilə müzakirələri yekunlaşdırıb.***

"Unikal" xəbər verir ki, bu barədə AFFA-nın saytı məlumat yayıb.

II Liqada çıxış edəcək 14-cü komandanın "Şəfa" FK olmasına qərar verilib.




# Millini tərk edən Rahilin yeni klubu məlum oldu

***Azərbaycan millisinin futbolçusu Rahil Məmmədovun yeni klubu məlum olub.***

"Unikal" xəbər verir ki, 28 yaşlı müdafiəçi Polşanın "Radomyak" komandasına keçib. Onunla 2026-cı ilin yayınadək müqavilə imzalanıb. Bu barədə klubun rəsmi saytı məlumat yayıb.

Rahil Məmmədov son olaraq Polşanın digər təmsilçisi LKS-in formasını geyinib.



# MLS tarixinin ən gənc futbolçusu oldu



***"Filadelfiya"nın yarımmüdafiəçisi Kavan Sallivan MLS-də yeni rekord müəyyənləşdirib.***

QOL.az xəbər verir ki, o, bunu "Nyu İnglend Revoluşen" ilə matçda meydana çıxmaqla bacarıb. Nəticədə 14 yaş 293 günlüyündə olan futbolçu MLS-də meydana çıxan ən gənc oyunçu adını qazanıb.

Bu titul daha əvvəl 2004-cü ildə 14 yaş 307 gün olarkən "DC Yunayted"də debüt edən Freddie Aduyə aid idi.

Qeyd edək ki, may ayında Kavan Sallivan İngiltərənin "Mançester Siti"sinə keçməyə razılaşıb. Gənc amerikalı 18 yaşı tamam olan kimi "şəhərlilər"in oyunçusu olacaq.

# "Roma" qapıçı transfer etdi

***"Roma" qapıçı Metyu Rayanı transfer edib.***

QOL.az klubun saytına istinadən xəbər verir ki, avstraliyalı qolkiperlə 1+2 illik müqavilə imzalanıb. 32 yaşlı futbolçu İtaliya təmsilçisinə azad agent kimi keçib. O, yeni klubunda 98 nömrəli forma ilə çıxış edəcək.

Bundan əvvəl Rayan "Brügge", "Valensiya", "Genk", "Brayton", "Arsenal", "Real Sosyedad", "Kopenhagen" və "AZ Alkmaar" klublarında çıxış edib.



# Azərbaycan millisi FİFA reytinqində neçəncidir?



***FİFA milli komandaların növbəti reytinq cədvəlini açıqlayıb.***

"Unikal" qurumun saytına istinadən xəbər verir ki, iyul ayının reytinq cədvəlinə əsasən, Azərbaycan millisi öz mövqeyində qalıb. Milli 1179,88 xalla 111-ci pillədə qərarlaşıb.

Azərbaycanın Millətlər Liqasındakı rəqiblərndən İsveç 1522.19 xalla 29-cu , Slovakiya 1479.07 xalla 44-cü, Estoniya 1146.47 xalla 123-cüdür.

Reytinq cədvəlinə son dünya çempionu və Amerika kubokunun qalibi Argentina (1901.48) başçılıq edir. Fransa (1854,91) 2-ci, son Avropa çempionu İspaniya isə (1729,92) 3-cüdür.